*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı | 14 iyul 2023-cü il №26 (9034) | www.muallim.edu.az muallim@edu.gov.az



**BU SAYIMIZDA**

**Həssas yanaşma, vətəndaş məmnunluğu**



səh.2

**SERTİFİKATLAŞDIRMA: peşəkar müəllim - keyfiyyətli təhsil**



səh.3

**Təhsilin İnkişafı Fondu qadınlara təqaüd ayırdı**



səh.7

**MDU yeni dövrün universitetinə çevrilmək yolunda**

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

səh.8

**Əylən, öyrən, istirahət et**



səh.10


## Məktəblilərin uğur estafeti

### 34-cü Beynəlxalq Biologiya Olimpiadasında




3-11 iyul tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Əl-Ayn şəhərində keçirilən 34-cü Beynəlxalq Biologiya Olimpiadasında şagirdlərimiz uğurla çıxış ediblər. 76 ölkə üzrə 293 şagirdin iştirak etdiyi yarışda 4 məktəbli ilə təmsil olunan komandamız 2 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıb.

Olimpiadada Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Zəhrabəyim Abdullayeva və Nurlan Məmmədov bürünc, Quba şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Kənan Orucəliyev isə həvəsləndirici mükafata layiq görülüb.

### 64-cü Beynəlxalq Riyaziyyat Olimpiadasında




2-13 iyul tarixlərində Yaponiyanın Çiba şəhərində keçirilən 64-cü Beynəlxalq Riyaziyyat Olimpiadasında şagirdlərimiz uğurla çıxış ediblər. 112 ölkə üzrə 618 şagirdin iştirak etdiyi yarışda 6 məktəbli ilə təmsil olunan komandamız 1 gümüş, 1 bürünc medal və 4 həvəsləndirici mükafat qazanıb.

Olimpiadada Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Fidan Qarayeva gümüş, Cəlil Hüseynov bürünc medal qazanıblar. Həmin liseyin X sinif şagirdi İbrahim Kərimli və XI sinif şagirdi Anar Mehdiyev, həmçinin Bakı şəhəri 160 nömrəli Klassik gimnaziyanın XI sinif şagirdi Fərrux Əsədov və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin X sinif şagirdi Mirhəbib Əsgərov həvəsləndirici mükafata layiq görülüblər.

Onu da qeyd edək ki, Fidan Qarayeva Asiya üzrə Məryəm Mirzəxani mükafatı ilə təltif olunub. Sözügedən mükafat hər bir regionda ən yüksək nəticə göstərən məktəbli qızlara təqdim edilir.

**Şagirdlərimizi təbrik edir, onlara uğurlar arzulayırıq!**

# MİQ - həyəcanın, sevincin ünvanı...



## Şəffaf, ədalətli müəllim seçimi

Bakı şəhəri 263 nömrəli tam orta məktəb həyəcanın, sevincin mərkəzidir bu günlərdə. Yəni, məktəb müəllimlərin işə qəbulu üzrə imtahan mərkəzidir. Bu həyəcanı yaşayanlardan biri də balaca Lalədir. Nənəsi ilə birlikdə anasının yolunu gözləyir. Yorulsa da, bunu büruzə vermir, amma gözləri yoldadır. Nənəsi Arzu Fətəliyevadan öyrəndik ki, nəvəsi ilə birlikdə qızını gözləyirlər: “Qızım Əfsanə Kərimli imtahandadır, onu gözləyirik. Yaxşı bal toplayar, sevindirər bizi. Şəkidə işləyirdi, yaxşı müəllim idi. Sonra ailə qurub, Bakıda yaşadı. Bu səbəbdən müəllimliyə ara vermişdi. İndi imtahan verib yenidən işləmək istəyir”.

⇨Ardı səh.4

## 6714 nəfər təhsil tələbə kreditindən yararlanıb

### Kredit almaq üçün müraciət edənlərin statistikası açıqlanıb

Cari tədris ilinin yaz sessiyasında təhsil tələbə krediti (TTK) almaq üçün müraciət edənlərin statistikası açıqlanıb.

Təhsil Tələbə Krediti Fonduna müraciət edən şəxslər üzrə ümumilikdə 6714 nəfər təhsil tələbə kreditindən yararlanıb. Onlardan 2345 nəfərin müraciəti sosial TTK, 4369 nəfərin müraciəti isə standart TTK olaraq rəsmiləşdirilib.

Qeyd edək ki, Təhsil Tələbə Krediti Fonduna notarial qaydada təsdiqlənmiş ərizə ilə elektron müraciət edərək kreditdən yararlanmaq mümkündür.




## QS reytinqi necə yarandı?

**Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış Quacquarelli Symonds (QS) artıq 20 ildir ki, dünyanın nüfuzlu ali təhsil müəssisələrini müxtəlif istiqamətlər və kateqoriyalar üzrə qiymətləndirir, onların qlobal reytinqini (QS World University Rankings) tərtib edir. Son 20 illik dövr QS-in bütün dünya üzrə universitetlərin fəaliyyətini etibarlı şəkildə əks etdirən möhkəm metodologiya qurmaq və təkmilləşdirmək üçün ali təhsil sektoru ilə əməkdaşlığının uzunillik tarixini ehtiva edir. QS-in təsisçisi və prezidenti Nunzio Quacquarelli *topuniversity.com* saytına verdiyi müsahibəsində reytinqlərin mənşəyi və bu sahədə 20 illik fəaliyyətin onun üçün daşıdığı önəm barədə düşüncələrini paylaşıb.**

⇨Ardı səh.12

# "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsili üçün Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi qrant proqramları Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə, dost və tərəfdaş ölkələrdə insan resurslarının inkişafına nəzərəçarpan töhfələr vermişdir.

Həmin təhsil qrantı proqramlarının uğurlu təcrübəsi əsasında xarici ölkə vətəndaşlarına təhsil qrantının verilməsi istiqamətində növbəti mərhələyə keçid beynəlxalq sülh və əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artmasına, beynəlmiləlləşməsinə və ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin coğrafi müxtəlifliyinin genişlənməsinə də müsbət təsir edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının layiqli mövqe qazanmasında müstəsna rolunu nəzərə alaraq, ali təhsil müəssisələrində əcnəbilərin təhsilinə dəstək vermək məqsədilə **qərara alıram:**

1. Aşağıdakı ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin tədris dilinə uyğun hazırlıq kurslarında, bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura), doktorantura səviyyələrində təhsili üçün "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı təsis edilsin:

1.1. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr;

1.2. Qoşulmama Hərəkatına üzv ölkələr;

1.3. İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr;

1.4. xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələr.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilmiş təhsil qrantı:

2.1. 2024-2025-ci tədris ilindən başlayaraq hər il 100 təhsil qrantı olmaqla 5 (beş) il müddətində verilir;

2.2. Azərbaycan Respublikasının hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, tibbi yardım və təhsil qrantı alacaq şəxslərin ildə bir dəfə ölkələrinə gediş-gəliş xərclərini əhatə edir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi qaydasını və həmin təhsil qrantının məbləğini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, hər il may ayının 1-dən gec olmayaraq, bu Sərəncamın 1.1-1.4-cü bəndləri üzrə təhsil qrantının verilməsi üçün kvotaları (o cümlədən ölkələr üzrə kvotaları), namizədlərin seçim meyarlarını və bunların əsasında təhsil qrantı alacaq şəxslərin siyahısını müəyyənləşdirsinlər.

5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Sərəncamın 4-cü hissəsinə uyğun olaraq müəyyənləşdirilmiş siyahı üzrə əcnəbilərin təhsil alacaqları Azərbaycan Respublikasının ali təhsil müəssisələrini müəyyən etsin və 2024-2025-ci tədris ilindən başlayaraq həmin ali təhsil müəssisələrinə Azərbaycan Respublikasının dövlət büdcəsindən bu Sərəncamın 2.2-ci bəndində nəzərdə tutulan xərclərin ödənilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.2-ci bəndində nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin müvafiq illər üzrə dövlət büdcəsi layihəsində nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 iyul 2023-cü il*

# M.B.Babanlının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mustafa Baba oğlu Babanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

# BDU-da Keyfiyyət Təminatı Mərkəzi yaradılıb

Bakı Dövlət Universitetində (BDU) Keyfiyyətin təminatı, monitorinq şöbəsinin bazasında Keyfiyyət Təminatı Mərkəzi yaradılıb.

Universitetdən bildirilib ki, bununla əlaqədar BDU-nun Elmi Şurası qərar qəbul edib.

Keyfiyyət Təminatı Mərkəzinin yaradılması üçün Almaniya və Türkiyə universitetlərinin təcrübəsi öyrənilib, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin tövsiyələri nəzərə alınıb.

Keyfiyyət Təminatı Mərkəzində Monitorinq, təhlil və akkreditasiya, Təlim, metodik dəstək və inkişaf şöbələri fəaliyyət göstərəcək.

# BMU-da daha bir yeni ixtisas – "Materiallar mühəndisliyi"

2023/2024-cü tədris ilindən etibarən Bakı Mühəndislik Universitetində (BMU) bakalavr pilləsində "Materiallar mühəndisliyi" ixtisası üzrə kadr hazırlığı aparılacaq.

Materialşünaslıq materialların tərkibi, xassələri və strukturu arasındakı əlaqəni, eyni zamanda müasir, yeni tip materialların yaradılması və istehsal üsullarını öyrənir. Bu sahə müasir inşaat, memarlıq və dizaynın, inşaat materialları sənayesinin, metallurgiyanın və s. formalaşmasında, onların material təminatının elmi əsaslarının qurulmasında əhəmiyyətli rol oynayır.

Müasir materialşünas və texnoloqlar insanların müxtəlif sənaye sahələrində dayanmadan artan tələbatını və sürətlə dəyişən zövqünü təmin etmək üçün daima yeni material və texnologiyaların yaradılması və tətbiqi istiqamətində mühüm işlər görürlər. Ənənəvi materiallarla yanaşı, son dövrlərdə sürətlə yaranan və inkişaf edən kompozisyon materiallar sənayesi, nano və biotexnologiyalar, "ağıllı" materiallar sənayesi və s. materialşünaslıq elminin nə qədər mühüm və perspektivli bir sahə olduğunu göstərməkdədir.

Materialşünaslıq ixtisasının tələbələri materialların istehsal prosesləri, emalı və hazırlanma texnologiyalarını dərindən öyrənmək və sənayenin müxtəlif sahələrində (keramika, şüşə, sement, gips, əhəng, beton, metallurgiya, polimer materiallar, quru inşaat materialları istehsalı müəssisələrində, eləcə də tikinti sahələrində və s.) bir çox vəzifələrdə çalışmaq imkanı qazanacaqlar. Bununla yanaşı, bu ixtisasın məzunları istehsal prosesləri üzrə texnoloq, istehsal menecerləri, elmi-tədqiqat və layihə institutlarında müvafiq vəzifələrdə, elmi dərəcələr aldıqdan sonra isə ali məktəblərdə pedaqoji işçi kimi də fəaliyyət göstərə biləcəklər.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Lerikdə vətəndaşları qəbul edib



İyulun 10-da elm və təhsil naziri Emin Əmrullayev Lerik rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda Lənkəran, Astara və Lerik rayonlarının sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbulda vətəndaşlar, əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, təhsil müəssisələrinin təmir-tikinti işləri, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.





# Mütəxəssislərimiz Avropa Birliyinin qrant müsabiqəsinin qalibi olublar

Bakı Dövlət Universitetinin (BDU) Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının (ETL) əməkdaşlarının təqdim etdiyi layihə Avropa Birliyinin "Erasmus+ Jean Monnet" proqramı üzrə müsabiqənin qalibi olub. Layihə "Erasmus+Jean Monnet" fəaliyyətləri çərçivəsində modul səviyyəsində təqdim edilib.

Layihəni Nanoaraşdırmalar ETL-nin müdiri Mustafa Muradovun rəhbərliyi ilə laboratoriyanın əməkdaşı Günel Əliyeva təqdim edib. "Aİ-nin nanomateriallara yanaşmaları - təhsil və təşviq" ("EU approaches to nanomaterials - education and promotion-EU-NANO") adlı layihənin müddəti 36 aydır. Layihə çərçivəsində 2 yeni fənnin tədrisi nəzərdə tutulur. Layihənin əsas məqsədləri BDU-nun nanomaterialların sintezi, tədqiqi və tətbiqi istiqamətində tədris proqramının zənginləşdirilməsi, tələbələrinin əmək bazarında rəqabət qabiliyyətinin artırılması, Azərbaycanda nanomaterialların təhlükəsizliyi məsələlərində Aİ-nin tənzimləmələri barədə məlumatlılığın artırılması və iki fənn üzrə tədris materiallarının hazırlanmasından ibarətdir.

Nanomaterialların istehsal texnologiyaları, tətbiqi sürətlə inkişaf etdirilir, katalizatorlar, elektronika, günəş panelləri, batareyalar, sensorlar və müxtəlif dərman məhsulları daxil olmaqla, bir çox innovativ tətbiqlərdə istifadə edilir. Bu, bəzi nanomaterialların insanlar və ətraf mühit üçün yeni risklər yarada biləcəyi ilə bağlı narahatlıq doğurur. Avropa İttifaqında nanomateriallar üçün müxtəlif tənzimləyici qanunlar və nanomaterialların istifadəsini tənzimləyən müddəalar mövcuddur. Nanomateriallar həm tədqiqatda, həm də sənayedə geniş istifadə olunduqda yarada biləcəyi risk və təhlükələr, habelə onların qarşısının alınması yolları, qaydalar, strategiyalar və siyasətlər haqqında biliyə malik mütəxəssislərə ehtiyac yaranır. Layihə bu boşluğun aradan qaldırılmasına, nanomateriallar sahəsində bilik və bacarıqların artırılmasına, insan sağlamlığına və ətraf mühitə dəyən zərərin azaldılmasına yönəlib.

# Polşanın Varmiya və Mazuri Universiteti LDU ilə əməkdaşlıq edəcək

Lənkəran Dövlət Universiteti (LDU) və Varmiya və Mazuri Universiteti ilə imzalanmış Erasmus+ KA171 müqaviləsi çərçivəsində Polşanın bu ali məktəbinin geomühəndislik fakültəsinin dosenti Kristina Kurovska akademik işlərlə tanışlıq məqsədilə LDU-da olub. Onaq universitetin iqtisadiyyat və idarəetmə, aqrar və mühəndislik fakültələrini, eləcə də Beynəlxalq əməkdaşlıq şöbəsini ziyarət edib, rektor professor Natiq İbrahimova görüşüb.

Dosent Kristina Kurovska tədris proqramı, imtahan prosesi və laboratoriyalarla tanış olub, LDU əməkdaşlarına Varmiya və Mazuri Universiteti haqqında məlumatlandırma sessiyası keçirib.

Bundan əlavə, proqram çərçivəsində ikili əməkdaşlıq imkanları da müzakirə edilib.

# Yıldız Texniki Universitetinin əməkdaşları AzMİU-da

Erasmus + KA1 mübadilə proqramı çərçivəsində Türkiyənin Yıldız Texniki Universitetinin 3 əməkdaşı Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olub.

Səfərin ilk günü qonaqlar- Kadrlar şöbəsinin müdiri Fatma Tarık, İnzibati və Maliyyə İşləri İdarəsinin əməkdaşı Lətifə Gamze Şenöz Sinekoğlu, Səhiyyə, Mədəniyyət və İdman İdarəsinin mütəxəssisi Firdevs Gülər beynəlxalq əlaqələr üzrə prorektor professor Nərgiz Abdullayeva, elm və innovasiya məsələləri üzrə prorektor professor Nigar Aslanov ilə görüşüblər.

Görüşdə qonaqları salamlayan N.Abdullayeva institusional əlaqələrin gücləndirilməsində, mədəniyyətlərarası dialoqun asanlaşdırılmasında, əməkdaşlığın və elmin ötürülməsində mübadilə proqramlarının əhəmiyyətindən danışıb. Prorektor Erasmus+ KA1 təcrübə proqramının hər iki universitetə uzunmüddətli təsir göstərəcəyinə, onların inzibati proseslərini təkmilləşdirəcəyinə və əməkdaşlıq mədəniyyətini aşılayacağına inandığını vurğulayıb.

Qonaqlar AzMİU-nun iqtisadi və təsərrüfat işləri üzrə prorektoru texnika üzrə fəlsəfə doktoru İsrafil Məmmədov, sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Orxan Naqdiyev, AzMİU-nun İnsan resursları şöbəsinin müdiri Esmira Budaqova, baş mühasib Sarı Yusubov ilə də görüşüblər. Görüşlərdə qonaqlar inzibati strukturu və təcrübələri, xüsusilə insan resursları, sosial rifah və ictimaiyyətlə əlaqələr sahəsində geniş məlumatlar alıblar.

# Startaplarla bağlı əməkdaşlıq imkanları müzakirə olunub

İsrailin "AnD Ventures" şirkətinin təsisçisi və rəhbəri Ariel Cohen Azərbaycan Texniki Universitetində (AzTU) olub.

Qonaq AzTU-nun rektoru Vilayət Vəliyev və universitetin nümayəndələri ilə görüşüb.

Rektor V.Vəliyev qonağa AzTU-da innovasiya və startap ekosisteminin inkişaf etdirilməsi, universitet-sənaye əməkdaşlığının gücləndirilməsi istiqamətində son illər həyata keçirilən layihələr barədə danışıb.

Şirkət haqqında məlumat verən Ariel Cohen texnologiyaların inkişaf etdiyi müasir dövrdə startapların ilk olaraq universitetlərdə formalaşdığını deyib. O, rəhbərlik etdiyi şirkətin universitet startaplarına dəstək göstərilməsi sahəsindəki təcrübəsini də bölüşüb. Daha sonra startaplarla bağlı əməkdaşlıq imkanları müzakirə olunub.

# "Peşə təhsili sahəsində aparılan islahatlar artıq öz nəticəsini göstərməyə başlayıb"







## Elm və təhsil naziri Bərdədə Aqrar İnnovasiya Festivalında iştirak edib

"Peşə təhsili sahəsində aparılan islahatlar artıq öz nəticəsini göstərməyə başlayıb. Bu müəssisələrə qəbul olunan tələbə sayı son 3 ildə 50 faizdən çox artaraq 19000 nəfərə çatıb".

Bu fikirləri elm və təhsil naziri Emin Əmrullayev iyulun 11-də Bərdə rayonunda keçirilən Aqrar İnnovasiya Festivalında səsləndirib.

Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev peşə təhsilinin iqtisadiyyatın bütün sahələri ilə əlaqəli şəkildə inkişafının əhəmiyyətini qeyd edib. Emin Əmrullayev peşə məktəblərində, əsasən, gənclərin təhsil almalarına baxmayaraq, yaşlı nəslin nümayəndələrinin də burada yenilikləri öyrənə, öz bilik və bacarıqlarını təkmilləşdirə biləcəklərini vurğulayıb.

Tədbirdə iştirak edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında qeyd edib ki, festival kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə peşə təhsili müəssisələri arasında əməkdaşlığın daha da artmasına müsbət təsirini göstərəcək.

Qeyd edək ki, festival Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, həmçinin Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilib. Bərdə peşə liseyində təşkil olunan festivalda Kənd Təsərrüfatı Nazirliyinin bütün tabe qurumları, Peşə Təhsili üzrə Dövlət Agentliyinin nəzdindəki bir sıra peşə təhsili müəssisələri və 80-dən çox yerli, xarici şirkət nümayəndələri, həmçinin müxtəlif startapçılar iştirak ediblər.

Festivalın keçirilməsində məqsəd Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişafına töhfə verilməsi, bu sahə ilə peşə təhsili sektoru arasında mövcud əlaqələrin gücləndirilməsi, aqrar elm və təhsilin sahibkarlıq fəaliyyətinə inteqrasiyasıdır.

Festivalda kənd təsərrüfatına marağın artırılması və gənclərin bu sahəyə cəlb edilməsi məqsədilə peşə təhsili müəssisələrinin tələbələri üçün məlumat sessiyaları keçirilib, həmçinin fermerlər üçün təlimlər təşkil edilib.

Festival zamanı qonaqlar Bərdə peşə liseyinin fəaliyyəti ilə də yaxından tanış olublar. Bildirilib ki, 2021-ci ildə müasir standartlar əsasında fəaliyyətə başlayan müəssisədə 1200-ə yaxın tələbə kənd təsərrüfatı, İKT və sənaye kimi yüksək tələbat olan sahələr üzrə təhsil alır.

# SERTİFİKATLAŞDIRMA: peşəkar müəllim - keyfiyyətli təhsil

## Mərkəzi Aran regionu və Ağdaş üzrə ən yüksək nəticəni qazanan MÜƏLLİM

### *Vəfa İsgəndərova:* "Fənn olimpiadalarında, IX-XI siniflərin buraxılış imtahanlarında şagirdlərimin yüksək nəticələr əldə etməsi qürurvericidir"



**İyunun 20-24 tarixlərində dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesində növbəti test imtahanları keçirilib. Builki sertifikasiyada 20 000-ə yaxın təhsilverən ibtidai sinif, 8500-dən çox müəllim Azərbaycan dili və ədəbiyyat üzrə sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinə cəlb edilib. Sertifikatlaşdırmanın ilk mərhələsi ölkənin 13 müxtəlif şəhəri üzrə 23 imtahan mərkəzində təşkil olunub. Həmin mərkəzlərdən birində imtahan verərək uğur qazanan təhsilverənlərdən biri də Vəfa müəllim olub -Vəfa Etibar qızı İsgəndərova. O, 58 bal toplayaraq Mərkəzi Aran regionu və Ağdaş üzrə ən yüksək nəticə göstərib. Şagirdlərinin sevimli ədəbiyyat müəllimi nəinki rayonun, regionun, hətta ölkəmizin nümunə çəkilənlərindən birinə çevrilib.**



**"Şagirdlərimin nailiyyətləri məni peşəmə daha çox bağlayır"**

Vəfa İsgəndərova Ağdaş rayonundandır. Burada doğulub, burada məktəbə gedib. 2003-2007-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil alıb. Bakalavr təhsilini bitirən kimi Ağdaş rayon Nizami adına 2 nömrəli tam orta məktəbində müəllimlik fəaliyyətinə başlayıb. O gündən həmin məktəbdə "Ədəbiyyat müəllimi" kimi tanınır. Tanınmasının səbəbinə gəlincə, bu, onu peşəsinə bağlayan sevgidir. Dediyinə görə, müəllimliyi çox sevir: "Bu günə kimi minlərlə sagirdin elmə, biliyə yiyələnməsində müəyyən rola sahib olduğum üçün özümü çox xoşbəxt hiss edirəm. Fənn olimpiadalarında, IX-XI siniflərin buraxılış imtahanlarında tədris etdiyim fənn üzrə şagirdlərimin yüksək nəticələr əldə etməsi, müxtəlif ali təhsil ocaqlarında təhsil alan tələbələr arasında məhz mənim şagirdlərimin təmsil olunması qürurvericidir. Uzun sözün qısası, şagirdlərimin nailiyyətləri məni peşəmə daha çox bağlayır".

Düzdür, ən böyük stimullaşdırıcı insanın öz uğurlarıdır. Ancaq uğurların da bəhrələndiyi hisslər var. Vəfa müəllimin sözləri ilə desək, onun uğurlarının əsas qaynağı sevgidir: "Şagirdlərimin sevimlisi olmaq, onların sevgisini qazanmaq məni daha da ruhlandırıb, öz üzərimdə daha çox işləməyə həvəsləndirib. Onları, harda olmalarından asılı olmayaraq, doğru yola istiqamətləndirmək əsas vəzifələrimizdəndir. Bu vəzifəmin öhdəsindən layiqincə gəlmək üçün indiyə qədər nə lazımdırsa, etdim".

**"Özümü çox xoşbəxt hiss edirəm"**

Vəfa müəllim öz peşəsində yaxşılardan olmaq üçün daim oxuyub, hazırlaşıb: "2017-ci ildə keçirilən diaqnostik qiymətləndirmə zamanı 53 bal toplamışdım. Ona görə məqsədim növbəti imtahanlarda daha yüksək nəticə əldə etmək idi.Nəhayət, çoxdan gözlədiyim təhsilverənlərin sertifikasiya prosesində iştirak etdim və Mərkəzi Aran regionu və Ağdaş üzrə ən yüksək nəticə əldə edərək birinciliyi qazana bildim".

Vəfa müəllimin uğurunun sirri həm də paylaşmağı sevməsidir. Hər gün şagirdləri ilə biliyini paylaşan müəllim uğurunu paylaşmaqdan da qorxmur: "Əldə etdiyim bu böyük nailiyyətə görə özümü çox xoşbəxt hiss edirəm. Ancaq bu, tək mənim deyil, Ağdaş təhsilinin, ölkə təhsilinin uğurudur".

**"Bəlkə gələcəkdə özümü direktor kimi də sınayacağam"**

Ağdaşın sevimli ədəbiyyat müəllimi peşəsində hazırlaşmağın əhəmiyyətini xüsusi qeyd edir. Hər gün şagirdlərinin qarşısına çıxmaq böyük məsuliyyət tələb edir: "Bundan sonrakı fəaliyyətimdə də çalışacağam ki, gənc nəslin təlim-tərbiyəsi sahəsində əlimdən gələni əsirgəməyim. Onların işıqlı gələcəyə doğru addımlamasında mayak olum".

V.İsgəndərova sertifikasiya nəticələrinin karyera yüksəlişində dəstəyi olacağını bilir, amma hələlik yaxşı müəllim olaraq qalacaq: "Bəlkə gələcəkdə özümü direktor kimi də sınayacağam. Amma hazırda bu barədə düşünmürəm".

**Ruhiyyə DAŞSALAHLI**

**"2017-ci ildə keçirilən diaqnostik qiymətləndirmə zamanı 53 bal toplamışdım. Ona görə məqsədim növbəti imtahanlarda daha yüksək nəticə əldə etmək idi.Nəhayət, çoxdan gözlədiyim təhsilverənlərin sertifikasiya prosesində iştirak etdim və Mərkəzi Aran regionu və Ağdaş üzrə ən yüksək nəticə əldə edərək birinciliyi qazana bildim".**

**"Əldə etdiyim bu böyük nailiyyətə görə özümü çox xoşbəxt hiss edirəm. Ancaq bu, tək mənim deyil, Ağdaş təhsilinin, ölkə təhsilinin uğurudur".**

**"Bundan sonrakı fəaliyyətimdə də çalışacağam ki, gənc nəslin təlim-tərbiyəsi sahəsində əlimdən gələni əsirgəməyim. Onların işıqlı gələcəyə doğru addımlamasında mayak olum".**

# MİQ – həyəcanın, sevincin ünvanı...

Əvvəli səh.1

**İmtahanlar izlənilir**

Dünən, iyulun 13-də müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsinin test imtahanlarının gedişatı ilə tanış olmaq məqsədilə məktəbə mediatur təşkil edilib. Elm və Təhsil Nazirliyinin əməkdaşları, millət vəkilləri, media qurumlarının rəhbərləri, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar imtahan prosesini izləyiblər.

Mediaturda iştirak edən elm və təhsil nazirinin müavini Həsən Həsənli iştirakçılara bildirib ki, yüksək bilik və bacarığa malik perspektivli müəllimləri seçmək, tədris prosesinin keyfiyyətini yüksəltmək müsabiqənin əsas məqsədlərindəndir. Həsən Həsənli həmçinin yeni və peşəkar kadrların cəlb edilməsi ilə son iki ildə müddətsiz müqavilə əsasında 7 724, müddətli əsaslarla isə 11 854 nəfərin işə qəbul olunduğunu qeyd edib: "Müəllimliyə hər il artan maraq var və bunu görmək bizi sevindirir. Ən böyük imtahan mərkəzlərimizin birində olmaq, imtahanları izləmək və müəllimliyə artan marağı bir daha görmək fürsətimiz oldu".

Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli müəllimlərin işə qəbulu üzrə müsabiqənin məqsədi, təşkili qaydalarını və yenilikləri diqqətə çatdırıb.

Mediatur iştirakçılarına məlumat verilib ki, bu il MİQ vasitəsilə 10 000 müəllimin işə qəbulu hədəflənib. Əvvəlki illərdən fərqli olaraq, imtahan zamanı namizədlərə 150 dəqiqə vaxt verilir. Bununla yanaşı, ilk dəfə olaraq eyni seansda 8 000-dən artıq namizəd imtahana qatıla bilir ki, bu da namizədlər arasında daha ədalətli rəqabət imkanı yaradır.

İmtahanların birinci günü, iyulun 11-də də imtahanlar izlənilib. Həmin gün elm və təhsil nazirinin müavini Həsən Həsənli müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanlarının gedişatını Şamaxıda izləyib. Nazir müavini Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Rövşən Əliyevlə birlikdə Şamaxı şəhəri 6 nömrəli tam orta məktəbdə təşkil edilən imtahan mərkəzində olub. Həsən Həsənli bildirib ki, müəllimlərin işə qəbulu üzrə müsabiqə yüksək bilik və bacarığa malik müəllimləri aşkarlamaq imkanı verir, nəticə etibarilə, bu da öz növbəsində tədris prosesindəki effektivliyi artırmağa kömək edir.

Qeyd edək ki, MİQ-in test imtahanları Dağlıq Şirvan Regional Təhsil İdarəsi üzrə 2 mərkəzdə – Şamaxı şəhəri 6 və 9 nömrəli tam orta məktəblərdə keçirilir.

**İmtahanlar 2 gündür başlayıb, 2 gün də davam edəcək**

Xatırladaq ki, dünən iyulun 13-də, imtahanların üçüncü günü müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanlarına ibtidai sinif müəllimliyi üzrə 11004, musiqi fənni üzrə isə 3255 namizəd dəvət olunub.

İmtahanların birinci günü riyaziyyat fənni üzrə 4400, fiziki tərbiyə və kimya fənləri üzrə 5430 namizəd dəvət edilib. İmtahanların ikinci günü, iyulun 12-də müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsində tarix, coğrafiya, informatika, fizika və fransız dili fənləri üzrə namizədlər iştirak ediblər. Test imtahanlarının I seansına 6353, II seansına isə 6627 namizəd dəvət olunub.

Qeyd edək ki, test imtahanları 11-15 iyul tarixlərini əhatə edir və ölkənin 13 şəhəri üzrə 29 imtahan mərkəzində keçirilir. İmtahanlara 58000-ə yaxın namizəd dəvət olunub.





# Şəffaf, ədalətli müəllim seçimi

## Arzu Nağıyev: "Elə hesab edirəm ki, imtahana qatılan hər namizəd prosesdən razı qalıb"

Müəllimlərin işə qəbulu imtahanlarını ictimaiyyət də diqqətlə izləyir. Milli Məclisin deputatı Arzu Nağıyev müəllimlərin işə qəbulu imtahanlarını yaxından izləyənlərdən biridir: "Müəllimlərin işə qəbulu imtahanını dəfələrlə izləmişəm. Hər hansı neqativ fakt, hər hansı problem müşahidə etmədim. Elə hesab edirəm ki, imtahana qatılan hər namizəd də prosesdən razı qalıb. Çünki şəffaf və sağlam imtahan mühiti yaradılıb və hər kəs biliyinin gücü ilə özünə iş yeri qazanır. Düşünürəm ki, bu ədalətli mühiti yaradan Elm və Təhsil Nazirliyinin fəaliyyəti təqdirəlayiqdir".

Arzu Nağıyev imtahan zalında ibtidai sinif müəllimliyinə namizədlərin yaşı ilə maraqlanıb: "Mənə maraqlı idi ki, körpələrimizə dərs deyəcək şəxslər kimlərdir? Hesab edirəm ki, bu mediatur vasitəsilə marağımı da təmin etdim. Gördüm ki, böyük əksəriyyəti gənclərdir".

## Ceyhun Məmmədov: "MİQ imtahanlarının əhəmiyyəti böyükdür"

Millət vəkili Ceyhun Məmmədov: "MİQ imtahanlarının əhəmiyyəti böyükdür. Bu imtahanları şəffaf, ədalətli keçirməklə birincisi savadlı, bacarıqlı kadrları müəllimliyə cəlb edirik, ikincisi neqativ halları aradan qaldırırıq. Müəllimlərin işə qəbulu mütəşəkkil, sistemli prosesdir. Sadəcə praktiki məsələlər ortaya çıxa bilər. Düşünürəm ki, həmin halları aradan qalfırmaq üçün mexanizm hazırlanmalıdır. Onu da Elm və Təhsil Nazirliyinin nümayəndələri ilə müzakirə etdik. Bu müzakirələrdən sonra qəti qənaətim bundan ibarətdir ki, mövcud çətinliklər də tezliklə həllini tapacaq".









**"Namizəd bilirsə qazanır, bilmirsə yox"**

Qönçə Ələkbərova 2022/2023 tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu imtahanlarında yüksək bal toplayaraq Bakıdakı təhsil müəssisələrindən birində müəllimlik fəaliyyətinə başlayıb: "Son 5 ildə hər il müəllimlərin işə qəbulu imtahanlarında iştirak etmişəm. Ötən il 95.81 balla 112 nömrəli tam orta məktəbdə fəaliyyətə başladım. Son 5 ildə hər il müsabiqəyə qatıldığımdan bu il özümü boşluqda kimi hiss edirdim. Bu boşluğu da mənə imtahanları izləmək imkanı yaradaraq Elm və Təhsil Nazirliyi doldurdu. MİQ-ə qatılmadığım üçün özümü qəribə hiss edirdim. Sağ olsunlar, mediatura qatılaraq bu hissi bu il də yaşamağıma kömək etdilər. Bu gün bəlkə həyəcan və məsuliyyət olmayacaq deyə düşünürdüm, amma belə olmadı. Əksinə, bu gün zalda imtahan verən hər namizəd üçün həyəcan keçirdim. Hətta onlar üçün narahat oldum".

Qönçə müəllim deyir ki, imtahanları elə müşahidəçi kimi də, iştirakçı kimi də ədalətli, şəffaf hesab edir: "Namizədlər narahatlıq yaşamır, sadəcə suallara köklənir, bilirsə qazanır, bilmirsə, yox. Buna heç kəsin şübhəsi qalmır. Başqa sözlə, imtahanlarda ədalətə, şəffaflığa şübhə yoxdur".

**Orxan Məmmədov: "Şəffaflığın da, ədalətin də şahidiyəm"**

Orxan Məmmədov da ötən il müəllimlərin işə qəbulu imtahanlarında iştirak edib və 92.5 bal toplayıb: "6 ildir MİQ imtahanlarında iştirak edirdim. 6 ildir şəffaflığın da, ədalətin də şahidiyəm. Hər il daha çox çalışmalıyam, deyib yenidən imtahana hazırlaşmışam. Əgər ədaləti görməsəydim, yenidən imtahana hazırlaşmağa özümdə güc tapa bilərdimmi? Hər il topladığım bal rayonlarda işləməyə imkan verirdi. Bakıdan kənarda vakansiya seçə bilmirdim. Lakin ötən il topladığım bal da, vakansiya da çox idi və mən oxumağı arzuladığım məktəbdə işləmək şansı qazandım".

O.Məmmədov bu gün imtahan zalında eyni həyəcanı yaşasa da, imtahan verməməyin rahatlığını da hiss edib. Dediyinə görə, imtahan elə müşahidəçi kimi də həyəcanvericidir.

## ONLAR İMTAHAN VERDİLƏR

Aygün Həsənova Azərbaycan Dövlət Pedaqoji Universitetinin builki məzunudur. İbtidai sinif müəllimliyi üçün verdiyi imtahanda 77 bal toplayıb: "Hazırlaşmışdım da, düşünürəm ki, daha yüksək bal toplaya bilərdim".

Aysel Alyarova da Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. 80.5 balla iyulun 13-də keçirilən imtahanlarda səhər seansının uğurlu namizədlərindən olub. Elə müəllim kimi də uğur qazanacağına şübhəsi yoxdur: "Universiteti 90.5 balla bitirmişəm. Fəal tələbə olmuşam, təlimlərə, tədbirlərə qatılmışam. Daim öz üzərimdə işləyən biriyəm. Keçən il MİQ imtahanlarında da yaxşı nəticə göstərmişdim. Amma vakansiya olmadığı üçün 1 il müddətli müqavilə ilə çalışdım. Suraxanı rayon 118 nömrəli tam orta məktəbin müəllimi idim".

Müəllim olmaq istəyənlərə də sözü var: "Sadəcə öz üzərlərində çalışsınlar. Əmin olsunlar ki, mütləq nəticəsi olacaq. Hədəfimdə müəllim olmaq var, fərqi yoxdur mən bu işi harda görəcəyəm. Son bir ildə uşaqlarla işləyərək peşəmi sevdim. Hazırlaşan namizədlərə, müəllimlərə tövsiyəm odur ki, situativ suallar işləsinlər, kurikuluma diqqət yetirsinlər".

Aysel Əzizova imtahanda 89.5 bal toplayıb: "Çox ədalətli, şəffaf imtahan keçdi. Hazırlaşmışdım" deyir. Gəncə Dövlət Universitetini 2021-ci ildə bitirib. MİQ-ə hazırlaşıb. Keçən il 82.5 bal toplayıb, bu il 89.5 balla müəllim olmaq istəyir.

Saidə İlyasova isə imtahana həyat yoldaşı və qızı Mənsumə ilə gəlib. Anası gələnə qədər atası ilə onu gözləyib və azca yorulub. Amma imtahan verən böyükləri izləmək ona çox maraqlıdır. Qızını gözləməyə dəyibmi, bəs? "Azərbaycan dili çox rahat idi, 20 sualdan 19-na cavab yazdım. Amma kurikulum və riyaziyyatdan çətinliyim oldu deyə 70 bal topladım".

S.İlyasova Gəncə Dövlət Universitetinin 2023-cü il məzunudur, Gəncədə işləmək istəyir.

**Ruhiyyə DAŞSALAHLI**

Təhsil sahəsi cəmiyyət üzvlərinin, demək olar ki, tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir, yaxud da iştirakı ilə bağlıdır. Bir də ona görə ki, təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir. Təhsil haqqında danışarkən istərdim ki, həm orta məktəbdə, həm də ali məktəbdə təhsil alan gənclərimiz dünya elminin, dünya mədəniyyətinin əldə etdiyi dəyərlərlə nəinki tanış olsunlar, habelə onu mənimsəməyə şərait yaradılsın. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider**



# Ulu Öndər 23 nömrəli məktəbdə

Ulu Öndər Heydər Əliyev xalqını çox ağır tarixi sınaqlardan uğurla çıxarmış, bugünkü qüdrətli Azərbaycanın əsasını qoyan nüfuzlu dünya liderlərindən biri olaraq tarixdə qızıl imzasını atıb. Ümummilli Liderin ziyalılara, sadə insanlara, zəhmətkeşlərə səmimi, doğma münasibət bəsləməsi xalqın Heydər Əliyevə sonsuz sevgisini, inamını, etimadını formalaşdırıb. Bu inamın nəticəsidir ki, 1993-cü ildə xalqımız yeganə ümid, nicat ünvanı kimi məhz Ümummilli Lideri görüb, onu təkidlə hakimiyyətə dəvət edib. Heydər Əliyev "Mən həyatımın yerdə qalan hissəsini də doğma xalqıma bağışlayıram" deyərək bütün ömrünü xalqının xoşbəxtliyinə həsr edən dövlət xadimi olaraq əbədiyaşarlıq qazanıb. Ümummilli Lider Heydər Əliyev Milli Qəhrəmanlara, şəhid ailələrinə, döyüşlərdə şücaət göstərən igid oğul və qızlarımıza hər zaman böyük qayğı ilə yanaşıb. 1994-cü il sentyabrın 3-də Ulu Öndər Heydər Əliyevin Nəsimi rayonunda yerləşən 23 nömrəli tam orta məktəbdə Milli Qəhrəman Tahir Həsənovun xatirə lövhəsinin açılışı münasibətilə təhsil ocağını ziyarət etməsi Milli Qəhrəmanlara, şəhid ailələrinə göstərilən dövlət qayğısının bariz nümunələrindən biridir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini nəzərə alaraq Milli Qəhrəman Tahir Həsənov adına 23 nömrəli tam orta məktəbin müəllim heyətinin Ulu Öndərlə bağlı xatirələrini dinləyərək oxucularımızla bölüşürük.

## Müəllimlər həmin günü necə xatırlayırlar?

### "Ulu Öndər mənim məktəbə direktor təyin olunmağım barədə tapşırıq verdi"

*Qalibə Həsənova, 23 nömrəli tam orta məktəbin sabiq direktoru:* "Mənim oğlum Tahir Həsənov 23 nömrəli məktəbdə təhsil alıb və 1987-ci ildə məktəbi bitirib. 1992-ci ildə Tahir torpaqlarımızı düşmənlərdən qəhrəmanlıqla müdafiə edərkən Çıldıran döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Tahir həmin döyüşdə düşmən əlinə keçməmək üçün son anda əlindəki qumbaranı partladaraq həm özünü, həm də ətrafdakı erməniləri öldürüb.1993-cü ildə Nazirlər Kabinetinin qərarı ilə 23 nömrəli məktəbə Tahir Həsənovun adı verildi. 1994-cü il sentyabrın 3-də Ümummilli Lider Heydər Əliyev 23 nömrəli məktəbi ziyarət edərək Tahir Həsənovun barelyefinin açılışında iştirak etdi. Yadımdadır ki, Heydər Əliyev məktəbin pilləkənlərində dayanaraq çox gözəl nitq söylədi. Ulu Öndərin necə gözəl natiq olduğu hər birimizə məlumdur. Heydər Əlivev vətəpərvərlikdən, böyük sərkərdələr yetişdirmiş Azərbaycan xalqından, Tahir Həsənovun göstərdiyi şücaətdən, iştirak etdiyi döyüşlərdən danışdı, onun qəhrəmanlığının bütün şagirdlərə, gənclərə örnək olduğunu qeyd etdi. Heydər Əliyev Tahiri bir dəfə də olsun görmədiyinə baxmayaraq haqqında elə danışırdı ki, sanki uşaqlığından onu tanıyırdı, onun bütün gözəl xüsusiyyətlərini sadalayır, haqqında olduqca xoş sözlər deyirdi.

Bilirsiniz, 23 nömrəli məktəb Heydər Əliyevin Milli Qəhrəman məzununun şərəfinə ziyarət etdiyi ilk orta təhsil müəssisələrindən biridir. O zamanlar mən universitetdə çalışırdım və məktəbə barelyefin açılışında iştirak etmək üçün dəvət edilmişdim.

Ulu Öndərimiz mənim necə iztirab keçirdiyimi görərək, mənə necə ağır olduğunu hiss edərək mənim Tahirin adını daşıdığı məktəbə direktor təyin olunmağım barədə tapşırıq verdi. Həmin tarixdən 6 ay sonra, 1995-ci ilin mart ayında mən 23 nömrəli məktəbə direktor təyin edildim və 7 il, 2002-ci ilədək məkətəbin direktoru olaraq fəaliyyət göstərdim. Bununla Ulu Öndər mənim təsəlli tapacağımı, az da olsa dərdimi unudacağımı güman etmişdi. Bildirmək istəyirəm ki, həqiqətən bu məktəbdə işlədiyim illərdə mən ruhən dincəlirdim. ...Mən xatırlayıram ki, barelyefin açılışı zamanı çıxışında Ümummilli Liderimiz əminliklə bir gün mütləq işğal altında olan torpaqlarımızın geri qayıdacağını söylədi. Məktəbin müəllim kollektivi, şagirdlər diqqətlə Heydər Əliyevi dinləyirdi və onun bütün dediklərinə inanırdı. Xalq onu çox sevirdi və ona güvənirdi. Biz çox xoşbəxt xalqıq ki, Heydər Əliyev kimi böyük, dahi liderimizin İlham Əliyev kimi davamçısı var. Çox şükürlər olsun ki, məhz Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və gənclərimizin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu, şəhidlərimizin qanı yerdə qalmadı!".

### "Fəxr edirəm ki, Ümummilli Liderlə söhbət etmək mənə nəsib olub"

*Elmira İlizarova, ingilis dili müəllimi:* "Mən 23 nömrəli məktəbdə 1994-cü ildən ingilis dili müəllimi olaraq fəaliyyət göstərirəm. Elə həmin il sentyabrın 3-də Ümummilli Lider Heydər Əliyevin məktəbimizə gəlişində mən də iştirak etmişdim. Belə bir dahi insanı həyatda görmək, onun nitqini canlı dinləmək olduqca xoş idi. Həmin an keçirdiyimiz hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Sevinc, qürur, həyəcan, fərəh - bütün hisslərimiz bir-birinə qarışmışdı. Unudulmaz gün idi. Ulu Öndərimizi həyatda görmək mənə üç dəfə nəsib olub. İlk dəfə Heydər Əliyevi 12 yaşımda görmüşəm. Həmin dövrdə biz Kommunist Partiyasının Qurultayı zamanı çıxış edirdik. Yadımdadır ki, Heydər Əliyev bizim çıxışımızı ürəkdən alqışlamışdı. Ulu Öndərlə ikinci görüşüm 1994-cü ildə 23 nömrəli məktəbdə, üçüncü görüşüm isə 2001-ci il sentyabrın 1-də Müasir Təhsil Kompleksinin açıldığı gün baş tutmuşdu. Mən həmin məktəbə ingilis dili müəllimi kimi işə düzəlmişdim.

Kiçik bir sinifdə şagirdlərlə ingilis dilində danışır, mahnı oxuyurduq. Gözlənilmədən qapı açıldı və Ülu Öndər Heydər Əliyev sinfə daxil oldu. Ulu Öndər Azərbaycan dilində mənə və uşaqlara salam verdi. Mən də Heydər Əliyevlə Azərbaycan dilində salamlaşdım və biz söhbət etdik. Mən özümü həyatda bəxti gətirmiş insan hesab edirəm və bütün bunlar üçün Tanrıya şükr edirəm. Mən Azərbaycan Dillər Universitetinin məzunu olmuşam və tələbə ikən 23 nömrəli məktəbdə təcrübə keçmişəm. Bu məktəb məni tələbə vaxtlarımda çox cəlb etmişdi. Ali məktəbi bitirdikdən sonra mən bir çox yerlərdə fəaliyyət göstərdim, Rusiyada, Qazaxıstanda, ABŞ-da, İngiltərədə təhsilimi davam etdirməklə yanaşı iş təcrübəsi qazandım. Bununla belə, mən dövlət təqaüdü alırdım. Bütün bu imkanları mənə dövlətimiz yaratmışdı və mən özümü həmişə dövlət qarşısında borclu hiss etmişəm. Həmişə düşünmüşəm ki, mən də Vətənim üçün bacardığımı etməliyəm, mənə göstərilən etimadı doğrultmalıyam. Bu səbəbdən mən Azərbaycana qayıtdım və Vətənimdə işləməyə başladım. Mənim həmişə arzum dövlət məktəbində işləmək olub, bu səbəbdən iş üçün 23 nömrəli məktəbə müraciət etdim və işə götürüldüm. Artıq 30 ilə yaxındır ki, bu məktəbdə fəaliyyət göstərirəm. 23 nömrəli məktəb hər zaman peşəsinə vurğun pedaqoji kollektivi və böyük uğurlar qazanmış məzunları ilə seçilib, məzunları ilə fəxr edib. Məzunlar arasında ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva da var. 1982-ci ildə bu təhsil ocağını qızıl medalla bitirən Mehriban Əliyeva xoş əməlləri ilə daima ona doğma olan pedaqoji kollektivi sevindirib. Mən fəxr edirəm ki, Ümummilli Lider Heydər Əliyev kimi dahi şəxsiyyəti həyatda görmək, onunla söhbət etmək mənə nəsib olub. Ulu Öndər Heydər Əliyev qurucu rəhbər, mərd və xeyirxah insan kimi daim ürəklərdə yaşayacaqdır".

### "Həyatda mən Ulu Öndərlə üç dəfə görüşmüşəm"

*Cəmilə Nəsirli, tarix müəllimi:* "Mən 23 nömrəli məktəbdə 1990-cı ildən işləyirəm. Müəllim olmaqla yanaşı mən özüm də bu məktəbin məzunu olmuşam. Qeyd etmək istəyirəm ki, Heydər Əliyev hər zaman mənim idealım olub və olacaq. Müəllim yoldaşlarım da bilir ki, hələ orta məktəbdə oxuduğum dövrdən, 70-ci illərdən mən dahi şəxsiyyət Heydər Əliyevin vurğunu olmuşam. Həyatda mən Ulu Öndərlə üç dəfə görüşmüşəm. İlk dəfə Heydər Əliyevlə ibtidai siniflərdə oxuyarkən valideynlərimlə "Azdrama"ya gedəndə qarşılaşmışam. Onda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi idi. Mən Heydər Əliyevi orada görən kimi ona tərəf qaçdım, qucaqladım. O məni qucağına aldı, öpdü, xoş sözlər dedi. İkinci dəfə Heydər Əliyevi məktəbimizin məzunu, Milli Qəhrəmanımız Tahir Həsənovun barelyefini açmaq üçün məktəbimizə gələndə görmüşdüm. Həmin gün Ulu Öndərimiz Tahir Həsənov haqqında, onun qəhrəmanlığı haqqında çox gözəl nitq söylədi. Ümummilli Liderimiz qeyd etdi ki: "Gün gələcək, biz hökmən tarixi Azərbaycan torpaqlarına qayıdacağıq". Bu gün həmin sözlər öz təsdiqini tapdı. Üçüncü dəfə mən Heydər Əliyevi 1998-ci ildə Tibb Universitetinin binasının açılışında iştirak edərkən gördüm. Heydər Əliyev insan izdihamının arası ilə gedirdi. Mən o an ürəkdən "Heydər Əliyev!" deyə səsləndim. Ulu Öndər dayandı və düz mənə baxdı. Heydər Əliyev əlini uzatdı, mən izdihamın arasından çıxdım. Həmin vaxt müəllim yoldaşlarım da orada idi. Mən göz yaşlarımı saxlaya bilmirdim. Biz Ümummilli Liderlə söhbət edirdik və mən gözlərimə inana bilmirdim, yuxu gördüyümü sanırdım. Heydər Əliyev şəxsən 1973-cü ildə mənim babam, Nəsirli Məşədi Qəzənfəri "Qırmızı Əmək Bayrağı", dayım akademik Sudeyf İmamverdiyevi "Şərəf", "Şöhrət" ordenləri ilə təltif edib. Heydər Əliyevə dərin məhəbbət və hörmət bizim ailədən gəlib. Mən bir müəllim olaraq Ulu Öndərin xatirəsinə dərin ehtiramımı bildirirəm, onun ən böyük amalına sadiq qalaraq vətənpərvərlik, Azərbaycançılıq ruhunda gələcək nəsillər yetişdirməyə çalışıram".

### "Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq"

*Afaq Əliyeva, rus dili müəllimi:* "Mən 1989-cu ildən 23 nömrəli məktəbdə rus dili müəllimi işləyirəm. 1994-cü ilin sentyabrında Ulu Öndər tərəfindən məktəbimizdə Tahir Həsənovun barelyefinin açlışı mərasimində iştirak edən müəllimlərdən biri də mən olmuşam. Həmin dövr Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtdığı, yenidən xalqına qovuşduğu illər idi. Bilirsiniz ki, 1989-cu ildən başlayan çətin dövrlərdə Azərbaycan xalqının böyük liderinə çox ehtiyacı var idi. Şükürlər olsun ki, 15 iyun 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdı və dövlətimizə rəhbərlik etməyə başladı, ölkəmizi həmin ağır vəziyyətdən çıxarmağı bacardı. Mənim ən önəmli hesab etdiyim məqamlardan biri odur ki, Heydər Əliyev hər zaman xalqının yanında olan lider idi. Mənim Ümummilli Liderə dərin rəğbətimi bir məqamla da qeyd etmək istərdim ki, Heydər Əliyev sevməyi bacaran şəxsiyyət idi: Azərbaycanı, millətini, dilini, həyat yoldaşı Zərifə xanımı, uşaqları, incəsənəti çox sevirdi. Onun ürəyində böyük sevgi yaşayırdı. Sevgi ilə görülən iş hər zaman yaxşı sonluqla nəticələnir.

Xalqına olan sevgisinin nəticəsi olaraq Heydər Əliyev Bakıya qayıtdı, hər bir şeyi yenidən bərpa etməyə, yoluna qoymağa başladı. Onun sevgi ilə qurub-yaratdıqları bu gün də böyük sevgi ilə davam və inkişaf etdirilir. 1994-cü ildə Ulu Öndər tərəfindən məktəbimizə Milli Qəhrəman Tahir Həsənovun adının verilməsi və barelyefinin açılışı münasibətilə ziyarəti onun necə vətənpərvər olduğunu bir daha sübut edir. Bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, 10 il bundan öncə Heydər Əliyev Sarayında məktəb rəhbərliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdi və mən həmin tədbirin aparıcısı olmuşdum. 3 saat davam edən tədbirdə çoxlu sayda iştirakçı var idi. Tədbir bir çox televiziya və mətbu nəşrlərdə işıqlandırılmışdı. Heydər Əliyev xalqının yaddaşında, hər bir azərbaycanlının ürəyində əbədi yaşayacaq əvəzolunmaz şəxsiyyət, fenomenal liderdir".

**Lamiyə ƏLİMƏRDANOVA**

# Media savadlılığının artırılması ilə bağlı görüş keçirilib




Media savadlılığının əhəmiyyəti, ali və ümumtəhsil məktəblərində tədris proqramı çərçivəsində mənimsənilməsi, beynəlxalq təcrübə və fəaliyyət planı müzakirə olunub






Elm və Təhsil Nazirliyi ilə Medianın İnkişafı Agentliyi arasında media savadlılığının artırılmasına dair görüş keçirilib.

Görüşdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli hər iki qurum arasında əməkdaşlıq çərçivəsində görülən işləri təqdir edib. Mətin Kərimli gələcəkdə bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini bildirib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, öz növbəsində, media savadlılığının artırılması ilə bağlı həyata keçirilən dövlət proqramları, bu sahənin mövcud vəziyyətindən bəhs edib və kütləvi informasiyanın istehlakçı tərəfindən təhlilinin vacibliyini vurğulayıb.

Görüş çərçivəsində media savadlılığının əhəmiyyəti, ali və ümumtəhsil məktəblərində tədris proqramı çərçivəsində mənimsənilməsi, beynəlxalq təcrübə və fəaliyyət planı müzakirə olunub. Bununla yanaşı, qurumlararası əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə media savadlılığı ilə bağlı təqdimat da nümayiş olunub.

# “Green Energy” Startup PitchFest

Layihə çərçivəsində komandalar startap ideyalarını təqdim ediblər






Bakı Gənclər Mərkəzinin və “MLK Tech Group” MMC şirkətinin təşkilatçılığı, Təhsilin İnkişafı Fondunun birgə tərəfdaşlığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar “Green Energy” Startup PitchFest layihəsi baş tutub.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatları Ceyhun Məmmədov, Vüqar İskəndərov, BP-nin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse prezidenti Bəxtiyar Aslanbəyli, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva, “MLK Tech Group” MMC şirkətinin təsisçisi və direktoru Mələk Mahmudova, ictimaiyyət, media nümayəndələri və gənclər iştirak ediblər.

Aparıcı Günay Talıbovanın moderatorluğu ilə baş tutan tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub. Tədbirin ilk hissəsində Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva, “MLK Tech Group” MMC şirkətinin təsisçisi və direktoru Mələk Mahmudova çıxış edərək tədbirin məqsədi və hədəfləri haqqında məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Daha sonra tədbirin qonaqları “Green Energy” Startup PitchFest layihəsi və gənclərin fəaliyyəti ilə bağlı fikirlərini bölüşüblər.

Startup PitchFest-in qeydiyyat mərhələsi 10.06.2023 tarixində başlamış 27.07.2023 tarixində bitmişdir. Bu müddət ərzində yarış üçün 96 komanda qeydiyyatdan keçib. Yüksək potensiallı 20 komanda seçilərək Startup Pitchfest-də iştirak hüququ qazanıb.




Komandalar “Alternativ enerji”, “Yaşıl enerji”, “Enerji sərfiyyatı və idarəetmə” “Yenilənən enerji istehsalı”, “Ağıllı şəbəkələr”, “Enerji saxlanması” mövzuları üzrə öz startap ideyalarını münsiflər heyətinə təqdim ediblər.

## Tələbə və məzun işləri üzrə xarici ölkələrin təcrübəsi öyrənilir

“Azərbaycan Rektorlar Konfransının yaradılması” (ECAR) layihəsi çərçivəsində növbəti səfər İspaniyanın Madrid şəhərinə təşkil olunub.

10-14 iyul tarixlərini əhatə edən səfərin əsas məqsədi tələbə və məzun işləri üzrə İspaniya Rektolar Konfransı və İspaniya ali təhsil müəssisələrinin, eləcə də Fransa, Polşa və Litvadan olan tərəfdaşların iştirakı ilə həmin ölkələrin təcrübəsinin öyrənilməsidir.

Səfərdə Azərbaycan Texniki Universitetini (AzTU) ümumi işlər üzrə prorektor Fariz Mustafayev və Karyera və Məşğulluq Mərkəzinin əməkdaşı Ülviyyə Rəsulova təmsil edir.

Bir həftə davam edəcək səfərin ilk günü İspaniya Rektorlar Konfransının Baş katibi Maria Teresa Azərbaycan nümayəndə heyətini salamlayıb və İspaniyada görməkdən məmnun olduqlarını qeyd edib.

Daha sonra elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli nümayəndələr adından ispaniyalı həmkarları salamlayıb, ali təhsil müəssisələrinin inkişafına verdiyi töhfələr baxımından ECAR və digər beynəlxalq layihələrin xüsusi önəmindən bəhs edib.

Çıxışlardan sonra İspaniya Rektorlar Konfransının Baş katibi Maria Teresa Rektorlar Konfransının yaranması, İspaniya ali təhsil sistemində yeri və rolu, strukturu, fəaliyyət istiqamətləri, müvafiq komitələri haqqında təqdimat edib və sualları cavablandırıb.

İspaniya Rektorlar Konfransının Tələbələrlə iş üzrə komissiyasının icraçı katibi Angela Alcala isə İspaniya universitetlərində tələbələrlə iş üzrə məsələlərdə yeni strateji baxış, o cümlədən sektorlararası münasibətlər və koordinasiyanın vacibliyindən danışıb.

## Universitetlərin beynəlxalq əlaqələr və əcnəbi tələbələrlə iş üzrə rəhbər şəxslərinin şəbəkələşmə görüşü



İyulun 7-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakıda yerləşən ali təhsil müəssisələrinin beynəlxalq əlaqələr və əcnəbi tələbələrlə iş üzrə rəhbər şəxslərinin şəbəkələşmə görüşü keçirilib.

ADA Universitetində keçirilən görüş əcnəbi tələbələrin cəlbi ilə bağlı təcrübə mübadiləsi məqsədilə təşkil olunub.

Görüşdə Elm və Təhsil Nazirliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Milli Erasmus+ ofisi, eləcə də 32 ali təhsil müəssisəsinin əməkdaşları iştirak ediblər.

Əvvəlcə nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov və ADA Universitetinin Tələbə qəbulu və qeydiyyat şöbəsinin müdiri Günay Ziyadova açılış nitqi ilə çıxış ediblər.

Daha sonra Beynəlxalq əməkdaşlıq şöbəsinin sektor müdiri Müjdat Həsənov əcnəbi tələbələrin Azərbaycanda təhsilinə dair təqdimatla çıxış edib.

Odlar Yurdu Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Fəxrəddin Məmmədov və Xəzər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Verniqora da qeyd edilən mövzuda təcrübələrini bölüşüblər.

Çıxışlardan sonra iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

## NDU-da SAT İmtahan Mərkəzi fəaliyyətə başlayıb

Naxçıvan Dövlət Universitetinin (NDU) ingilisdilli liseyində regional SAT İmtahan Mərkəzinin təqdimatı olub.

Universitetin rektoru Elbrus İsayev ali təhsil ocağının müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturunun qurulmasında dövlətin xüsusi dəstəyini qeyd edərək təqdimatı keçirilən SAT mərkəzini bu istiqamətdə aparılan məqsədyönlü işlərin uğurlu davamı adlandırıb. Qeyd edilib ki, ötən il ali təhsil ocağında yaradılan IELTS qeydiyyat və imtahan mərkəzinin uğurla fəaliyyət göstərməsi universitetin beynəlxalq rəqabətliliyinin artırılması, ikili diplom proqramlarının həyata keçirilməsi, universitetin beynəlxalq əlaqələrinin inkişafı istiqamətində öz müsbət nəticələri ilə yadda qalıb: “SAT İmtahan Mərkəzi də nəinki universitetdə, eyni zamanda Naxçıvanda ingilisdilli mühitin inkişafına mühüm töhfələr verəcək”.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, SAT İmtahan Mərkəzinin koordinatoru Aidə Cəlilzadə qeyd edib ki, NDU 14 iyun 2023-cü ildə Amerika Birləşmiş Ştatları College Board təşkilatı tərəfindən rəsmi olaraq SAT İmtahan Mərkəzi kimi qeydiyyata alınıb. Bildirilib ki, həm kağız üzərində, həm də dijital formatda götürülə bilən SAT imtahanı 2023-cü ilin mart ayından beynəlxalq test mərkəzlərində adətən dijital qaydada həyata keçirilir. Bacarıqları qısa vaxt ərzində və daha yüksək konfidensiallıq şəraitində qiymətləndirdiyi üçün Dijital SAT variantı daha etibarlı hesab edilir.

Vurğulanıb ki, 2 hissədən ibarət olan imtahan birinci hissədə oxu və yazı bacarıqlarını, ikinci hissədə isə riyazi bacarıqları yoxlayan ikihissəli testdən ibarətdir. Orta keçid balı 1060 olan yeni dijital SAT imtahanı üçün ümumi bal 400-1600 sayılır. A.Cəlilzadə diqqətə çatdırıb ki, oxu və yazı bacarıqlarının hər modulu 32 dəqiqə olmaqla, ümumilikdə 64 dəqiqə, Riyaziyyat modulu isə 35 dəqiqə, ümumilikdə 70 dəqiqə olmaqla, imtahan müddəti 2 saat 14 dəqiqə təşkil edir. SAT İmtahan Mərkəzinin koordinatoru həmçinin qeyd edib ki, Riyaziyyat bölməsində cəbr, yüksək çətinlikdə olan riyazi məsələlər, məsələ həlli və data analizi, həndəsə və triqonometriyaya aid suallar olur. Hər bölmənin ilk modulu bitdikdən sonra test platforması avtomatik şəkildə ikinci hissəyə keçid edir. İlk modullar asan, orta və çətin suallardan ibarətdir, lakin ikinci moduldakı sualların çətinlik dərəcəsi birinci moduldakı suallara verilən cavablardan asılı olaraq daha asan və ya çətin olur. SAT imtahanında səhv düzü aparmır.

Beynəlxalq TEFL Təlim İnstitutunun Azərbaycan üzrə meneceri Afar İbrahimov onlayn olaraq tədbirə qatılıb və ali təhsil ocağında yaradılan mərkəzin fəaliyyətini yüksək qiymətləndirib.

Sonda müəllim və şagirdlərin sualları cavablandırılıb.

Qeyd edək ki, ali təhsil ocağında SAT İmtahan Mərkəzi Dijital SAT imtahanı üçün onlayn qeydiyyat aparmaq, SAT konsultasiya, SAT hazırlıq mərkəzi, imtahan mərkəzi kimi fəaliyyət göstərəcək. Mərkəzdə koordinator, köməkçi koordinator, texniki mütəxəssis və repetitorların fəaliyyət göstərməsi nəzərdə tutulur.

## Tatarıstanın “Tatneft” şirkəti Aşqarlar Kimyası İnstitutu ilə əməkdaşlıq edəcək

Tatarıstanın “Tatneft” şirkətinin mütəxəssisləri Aşqarlar Kimyası İnstitutu ilə sürtkü yağları üçün aşqarların istehsalının təşkili sahəsində mümkün əməkdaşlıq məsələlərini videokonfrans formatında müzakirə ediblər.

Görüşdə çıxış edən “Tatneft”in neft və qaz emalı sahəsinin rəhbəri, “TANECO” ASC-nin baş direktoru İlşat Salaxov öncə bildirib ki, neft və qazın emalı, neft-kimya məhsullarının istehsalı üzrə ixtisaslaşmış, eləcə də neft, qaz və neft-kimya layihələri üçün mühəndislik, təchizat və tikinti xidmətləri göstərən “Tatneft” Tatarıstan Respublikasının Almetyevsk şəhərində yerləşməklə Rusiya Federasiyasının ən böyük 5 neft şirkətindən biridir. O, həmçinin Azərbaycanın tarixən neft hasilatı, onun sənaye miqyasında emalı, sürtkü yağları istehsalının vətəni olduğu üçün keçmiş İttifaqda aşqarların işlənib hazırlanması və istehsalının da məhz ilk dəfə olaraq respublikamızda Aşqarlar Kimyası İnstitutu tərəfindən həyata keçirilməsindən məlumatlı olduğunu diqqətə çatdırıb.

İ.Salaxov Aşqarlar Kimyası İnstitutunun keçmiş SSRİ və MDB məkanında aşqarlar kimyası sahəsində fəaliyyətini elmi əsaslar üzrə davam etdirən yeganə elmi mərkəz olduğunu bildikləri üçün təmsil etdiyi şirkətin sürtkü materialları üçün aşqarların alınması, istehsalının təşkili ilə bağlı elmi-innovativ əməkdaşlığa böyük maraq göstərdiyini və qarşılıqlı əməkdaşlığın mümkün olacağına əminliyini söyləyib.

Videokonfransda çıxış edən Aşqarlar Kimyası İnstitutunun baş direktoru akademik Vaqif Fərzəliyev isə bildirib ki, Azərbaycan tarixən neft hasilatı, onun sənaye miqyasında emalı, yanacaqlar və sürtkü yağları istehsalının vətəni olduğu üçün keçmiş SSRİ-də aşqarların işlənib hazırlanması və istehsalı da ilk dəfə məhz Bakıda həyata keçirilib.

Akademikin sözlərinə görə, keçmiş SSRİ-də istehsal olunan bütün aşqarlar və sürtkü yağlarını, o cümlədən xüsusi təyinatlı yağların 20%-ni Aşqarlar Kimyası İnstitutu tərəfindən yaradılan aşqarlar və sürtkü yağları təşkil edib.

Akademik vurğulayıb ki, dövlətimizin elmə verdiyi xüsusi diqqət nəticəsində Aşqarlar Kimyası İnstitutu bu gün də öz keçmiş nüfuzunu qoruyub saxlayır.

Görüşdə tərəflər arasında prioritet istiqamətlər üzrə əməkdaşlığın konkret yolları, mövcud problemlər və onların birgə həlli haqqında fikir mübadiləsi aparılıb, yaxın gələcəkdə birgə əmkdaşlıq üçün yol xəritəsinin hazırlanmasının vacibliyi qərara alınıb.

# Təhsilin İnkişafı Fondu qadınlara təqaüd ayırdı






## Qadınlar informasiya texnologiyaları və yüksək texnologiyalar üzrə bilik və bacarıqlarını artıracaq

Təhsilin İnkişafı Fondu daha bir layihəyə imza atıb. Bu dəfə 15-40 yaşlı qadınlara təqaüd ayrılıb. Məqsəd qadınların informasiya texnologiyaları və yüksək texnologiyalar üzrə bilik və bacarıqlarının artırılması, cəmiyyətdə müvafiq olaraq öz yerlərini tuta bilmələridir. Bunun üçün Fondla "Women in Tech" təşkilatının Azərbaycan nümayəndəliyi arasında "Maya Hacıyeva adına İKT bacarıqları" təqaüd proqramının təsis edilməsi məqsədi ilə Anlaşma memorandumu imzalanıb.

Sənədi iyulun 7-də Azərbaycan Texniki Universitetində (AzTU) keçirilən tədbirdə Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov və "Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə imzalayıblar.

Tədbirdə Elm və Təhsil Nazirliyinin, nazirlik yanında İctimai Şuranın, Azərbaycan Texniki Universitetinin, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycan Mətbuat Şurasının, dövlət və özəl qurumların, təlim və tədris müəssisələrinin nümayəndələri iştirak ediblər.

AzTU-nun rektoru Vilayət Vəliyev bu təşəbbüsü yüksək qiymətləndirərək bildirib ki, təqaüd proqramının Azərbaycanın ilk riyaziyyatçı qadın alimi, riyaziyyat elminin inkişafında böyük töhfəsi olan Maya xanım Hacıyeva adına olması xüsusi əhəmiyyətə malikdir. M.Hacıyevanın əslən şuşalı olması isə, təqaüd proqramını hər birimiz üçün doğmalaşdırır.

Daha sonra çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov tədbirin başlıca məqsədi haqqında məlumat verib. E.Nəsibov müasir işəgötürənin tələblərinə cavab verən gənclərin yetişdirilməsində, həmçinin önəmli tədqiqat işlərinin aparılmasında sənaye və biznes nümayəndələrinin iştirakının əvəzsiz rol oynadığını bildirib. Qeyd olunub ki, innovativ mühitin yaradılmasını sənayenin iştirakı və tərəfdaşlığı olmadan təsəvvür etmək mümkün deyil. Dəyişən dünyada universitetlərin də dəyişən rolunu nəzərə almaq lazımdır. Yekunda E.Nəsibov bütün iştirakçıları AzTU-da əsası qoyulan universitet-sənaye işbirliyi mərkəzindən yararlanmağa dəvət edərək, digər ali təhsil ocaqlarında da bu cür mərkəzlərin yaradılacağına umid etdiyini bildirib.

Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli formalaşan əmək bazarının açarının hər zaman təhsil olduğunu vurğulayıb. M.Abbasbəyli qeyd edib ki, təhsil dedikdə, ənənəvi təhsili deyil, təhsildə yeni metodlar və yanaşmalar nəzərdə tutulur. Müasir dünyada gənclərin inkişafı, fərdi şəkildə əmək bazarına hazırlanması prosesində bu kimi layihələr çox böyük önəm daşıyır.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr əvəzi İnarə Vəliyeva ölkə vətəndaşlarının hazırda dövlət və özəl qurumlar tərəfindən yaradılmış imkanlardan faydalana bildiyi üçün çox şanslı olduqlarını vurğulayıb. İ.Vəliyeva Azərbaycanda müxtəlif qurumlar tərəfindən verilən təqaüdlərin yalnız 35%-nin qadınlar tərəfindən əldə edildiyini bildirərək bu tip təqaüd və dəstək proqramlarında qadınların xüsusi ehtiyaclarının nəzərə alınması vacibliyini diqqətə çatdırıb.

"Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə isə bildirib ki, təşkilat Azərbaycan daxil olmaqla, 50-dən çox ölkədə qadınların İKT sahəsində təşəbbüslərinin reallaşmasına dəstək göstərir, lakin bənzər təqaüd proqramları çox az ölkədə var. O, bu cür proqramların olmasının ölkəmizin imici üçün də çox vacib olduğunu qeyd edib.

Yekunda təqdimatla çıxış edən "Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin təhsil proqramları üzrə tərəfdaşı Leyla Hacıyeva təqaüd proqramının şərtləri barədə ətraflı məlumat verib.

Qeyd edək ki, təqaüd fiziki və hüquqi şəxslər tərəfindən sözügedən layihəyə köçürülmüş ianələr, qrantlar və digər daxilolmalar hesabına ayrılacaq. Proqrama Azərbaycan vətəndaşı olan 15-40 yaş aralığında qadınlar müraciət edə bilərlər.

**Ruhiyyə DAŞSALAHLI**

## "Nobel mükafatına aparan yolun dərsləri: mif, ziddiyyətlər, uğurlar və perspektivlər" mövzusunda elmi konfrans keçiriləcək

AMEA Rəyasət Heyətinin iclasında bu ilin sentyabr ayında Nobel mükafatına həsr olunmuş "Nobel mükafatına aparan yolun dərsləri: mif, ziddiyyətlər, uğurlar və perspektivlər" mövzusunda elmi konfransın keçirilməsi qərara alınıb.

Diqqətə çatdırılıb ki, bu konfransı keçirməkdə əsas məqsəd ölkəmizdə elmi tədqiqatları Nobel mükafatının yüksək reytinqlərinə doğru istiqamətləndirməkdən, Azərbaycan alimlərinin beynəlxalq layihə, qrant və mükafatlara dair müsabiqələrdə daha fəal iştirakını təşviq etməkdən ibarətdir.

## Pedaqoji bacarıqların artırılması üçün silsilə təlimlər

Azərbaycan Dövlət Aqrar Universitetinin bütün fakültələrində professor-müəllim heyətinin peşəkar pedaqoji bacarıqlarının artırılması məqsədi ilə silsilə təlimlər keçirilib.

Keyfiyyət təminatı şöbəsinin rəhbərliyi altında keçirilən təlimlər maliyyə və iqtisadi nəzəriyyə kafedrasının assistentləri Təranə İsmayılova və Nərmin Məsimli tərəfindən "İnteraktiv tədris metodları" mövzusunda təşkil olunub.

Təlimlərdə passiv, aktiv və interaktiv tədris metodları haqqında ümumi məlumat verilib, həmçinin, interaktiv təlim metodlarından bəhs edən videoçarx nümayiş olunub.

## AzMİU-nun rektoru və tələbələri Ümumdünya Memarlar Konqresində iştirak ediblər



Danimarkanın Kopenhagen şəhərində Beynəlxalq Memarlar İttifaqının (BMİ) təşkilatçılığı ilə Ümumdünya Memarlar Konqresi keçirilib.

Konqresdə ölkəmizi Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru professor Gülçöhrə Məmmədova, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Fərid Kərimov, AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının baş müəllimi Aliya Əliyeva və Memarlıq fakültəsinin tələbələri Leyli Əfəndiyeva, Jalə Abuşova, Ayməsey Qafarzadə, Ramid Səlimov təmsil ediblər.

Konqresin əsas mövzusu "Dayanıqlı gələcək - heç kəsi geridə qoymayın" olub və dünya üzrə 400-dən çox məruzəçi iştirak edib. İştirakçılar arasında məşhur memarlar, yeni istedadlar, elm adamları ilə yanaşı transmilli şirkətlərin rəhbərləri və nüfuzlu siyasətçilər də olublar.

Ümumilikdə 135 ölkədən 6000-dən çox iştirakçının qatıldığı konqresdə tanınmış tədqiqatçılar və elm adamları iqlim dəyişikliyi ilə mübarizə, biomüxtəlifliyi artırmaq və sosial inklüzivliyin təşviqi üçün yeni dizayn yollarını axtarıblar. Konqres "Kopenhagen Dərsləri" adı altında sürətli və köklü dəyişiklik üçün 10 prinsipin təqdim edilməsi ilə yekunlaşıb.

AzMİU müəllim və tələbələri konqres çərçivəsində dünyanın nüfuzlu memar və dizaynerlərilə görüşüb, bu sahələr üzrə müasir çağrışları müzakirə ediblər.




## "Gənc istedadlar" liseyinin şagirdi ABŞ-da olimpiadada qızıl medala layiq görülüb

Bakı Dövlət Universitetinin (BDU) nəzdində "Gənc istedadlar" liseyinin VI sinif şagirdi Sulduz Hacıyev ABŞ-ın Kolumbiya Universitetində keçirilən Beynəlxalq Kopernikus Olimpiadasında riyaziyyat üzrə qızıl medala layiq görülüb.

"Global Olympic Center"in təşkilatçılığı ilə keçirilən Beynəlxalq Kopernikus Olimpiadasının qlobal mərhələsində ölkəmizi müxtəlif məktəblərdən seçilmiş 60 istedadlı şagirddən ibarət komanda təmsil edib.

Olimpiadanın açılış mərasimində komandamızın üzvləri Azərbaycan Dövlət himninin sədaları altında səhnəyə çıxıblar. Azərbaycanlı riyaziyyatçılar beynəlxalq turnirdə 22 ölkə ilə yarışıb və ölkəmizin komandası 5 kateqoriya üzrə təmsil olunub.

"Gənc istedadlar" liseyinin VI sinif şagirdi S.Hacıyev 12 yaş qrupunda olimpiadanın qalibi olub, qızıl medala layiq görülüb.

Sonda olimpiada qalibləri mükafatlandırılıb. Mükafatlandırma mərasimində Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim çıxış edərək bütün iştirakçıları və Azərbaycan komandasını təbrik edib.

## Tələbələrimiz beynəlxalq "Harmony" müsabiqəsində uğur qazanıblar



Gürcüstanın Gürcü Folkloru və Klassik Musiqi İttifaqının təşəbbüsü ilə Borjomi şəhərində keçirilən Klassik Musiqi İfaçılarının Beynəlxalq Müsabiqə-Festivalına yekun vurulub. Üçüncü dəfə keçirilən müsabiqə-festival böyük əhəmiyyət kəsb edib. Belə ki, əsas məqsəd müxtəlif ölkələrin milli mədəniyyətlərinin təbliğindən və istedadların üzə çıxarılması, gənclər arasında təcrübə mübadiləsindən ibarət olub.

Müsabiqəyə Azərbaycan, ABŞ, Rusiya, Gürcüstan, Polşa, Qazaxıstan və digər ölkələrdən olan iştirakçılar qatılıb. Beynəlxalq "Harmony" müsabiqəsində ölkəmizi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbə-müəllim heyəti təmsil edib.

Akademiyanın tədris işləri üzrə prorektoru, Əməkdar müəllim Nərminə Quliyevanın yüksək peşəkarlığı nəticəsində festivalda nailiyyətlər əldə olunub. Festivalda Bakı Musiqi Akademiyasının müəllim-tələbə heyəti -fortepiano orqan və klavesin kafedrasının dosenti Tofiyə Cavadova, baş müəllim Lalə Atakişiyeva, "Simli alətlər" kafedrasının baş müəllimi Pərvanə Xanlarova (konsertmeysteri Nigar Məmmədova), "SABAH" qrupunun xoru (bədii rəhbər Dimitri Babayev) və fortepiano fakültəsinin üçüncü kurs tələbələri Fatimə Hacızadə, İlqarə Talıbova, Fidan Yunus Azərbaycan klassik musiqi mədəniyyətinin incilərini uğurla nümayiş etdiriblər.

Onlayn formatda keçirilən müsabiqədə Akademiyanın fortepiano fakültəsinin II kurs tələbəsi Aygül Mahmudova II , (müəllim Nilufər Tabasaranskaya), I kurs tələbəsi Nuray Əliyeva III, (müəllim professor Kəmalə Neymanova), III kurs tələbəsi Zərifə Hasilova III yerləri (müəllim professor Afaq Rüstəmova) qazanıblar.

**Sifai SƏFƏROVA**

## ADNSU ilə Vorvik Universitetinin ikili diplom proqramı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə İngiltərənin Vorvik Universiteti "Bərpaolunan enerji mənbələri" ixtisası üzrə magistratura səviyyəsində ikili diplom proqramı həyata keçirir.

Tamamilə dövlət hesabına təmin ediləcək bu proqram çərçivəsində tələbələr həm əcnəbi, həm də yerli professor-müəllim heyəti tərəfindən ölkə daxilində təşkil olunacaq dərslərdə, həmçinin əcnəbi heyət tərəfindən İngiltərədə keçiriləcək 4 həftəlik dərslərdə iştirak edərək sahə üzrə kompetensiyalara yiyələnəcəklər. Sözügedən ikili diplom proqramı Böyük Britaniyada günəş fermaları və külək turbinlərinin istismarı zonaları ilə yanaşı, aparıcı bərpaolunan enerji sahələrinə, müvafiq şirkətlərə baş çəkmək fürsəti təqdim edir. Səyahət və viza daxil olmaqla səfər xərcləri, həmçinin yerləşmə, qidalanma ilə bağlı xərclər Dövlət Proqramı qaydalarına əsasən tam şəkildə ödəniləcək.




İlkin mərhələdə 48 tələbənin müvafiq ixtisas üzrə hər iki ali təhsil müəssisəsinin diplomuna yiyələnməsi nəzərdə tutulub.

Proqramla bağlı ətraflı məlumatı *http://asoiu.edu.az/info_main* internet səhifəsindən əldə edə bilərsiniz.

Digər suallarla bağlı *info.warwick@asoiu.edu.az* elektron poçt ünvanına müraciət göndərmək mümkündür.

Qeyd edək ki, Vorvik Universiteti 2024 QS reytinq sisteminə əsasən dünyada 67-ci yerdədir.

# MDU yeni dövrün universitetinə çevrilmək yolunda

## 2022/2023-cü tədris ilinin yekunları: tədris və elmi fəaliyyətdə əsas nəticələr



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

### Milli ali təhsil məkanında yeni reallıqlar və aktual vəzifələr

Azərbaycanda COVID-19 infeksiyasına qarşı həyata keçirilən effektiv mübarizə tədbirləri sayəsində xüsusi karantin rejiminin əhəmiyyətli dərəcədə yumşaldılması uzunmüddətli fasilədən sonra cari tədris ilində respublikamızın bütün ali təhsil müəssisələrində ənənəvi təhsilin tamamilə bərpa edilməsinə səbəb olmuşdur.

Habelə, ölkəmizdə 2022-ci ilin "Şuşa İli" və 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar olaraq, cari tədris ilinin payız və yaz semestrləri ali təhsil müəssisələrində bir çox əlamətdar hadisələrlə zəngin olmuşdur. Bu çərçivədə həyata keçirilmiş çoxsaylı və rəngarəng elmi, sosial, mədəni, maarifləndirici və beynəlxalq fəaliyyətlər universitetlərimizin cəmiyyət həyatında aktivliyini və ictimai nüfuzunu daha da artırmışdır.

Cari tədris ili, həmçinin Azərbaycanda təhsilalanların sosial rifahının yaxşılaşdırılmasına dövlət dəstəyi baxımından da yadda qalan olmuşdur. Belə ki, Prezident İlham Əliyevin 2023-cü il 13 yanvar tarixli müvafiq fərman və sərəncamı ilə Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün və dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləği artırılmışdır. Bundan əlavə, Prezidentin 2023-cü il 24 iyun tarixli sərəncamı ilə "Heydər Əliyev adına təqaüd" təsis edilmişdir.

Eləcə də, ölkə rəhbəri tərəfindən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi milli ali təhsilimizin beynəlxalq ali təhsil məkanındakı mövqeyinin gücləndirilməsi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir.

Bunlarla yanaşı, dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədləri müasir dövrün tələblərinə və çağırışlarına cavab verən ali təhsilin təmin edilməsi istiqamətində universitetlər qarşısında yeni vəzifələr qoymuşdur.

Eyni zamanda, Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" sənədlərinin təsdiq edilməsi universitetlərdə strateji inkişaf və keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi baxımından xüsusi önəm daşıyır. Yeni Meyarların tətbiqi səriştəəsaslı və tələbəyönümlü təhsil proqramlarının tətbiqi, ömürboyu təhsil və təhsilin fasiləsizliyinin təmin olunması, keyfiyyətli və şəffaf ali təhsil prosesinin cəmiyyətin və iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması, elmi tədqiqat və innovasiyaların inkişafı, ali təhsil sisteminin beynəlmiləlləşməsi və beynəlxalq rəqabətliliyinin artırılması vəzifələrini aktuallaşdırmışdır.

Bu baxımdan, Mingəçevir Dövlət Universitetində (MDU) bütün fəaliyyətlər milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan inkişaf trendləri, meydana çıxan yeni çağırışlar və reallıqlar, eləcə də mövcud potensial nəzərə alınaraq həyata keçirilmişdir. Dövlətin ali təhsilə yüksək diqqət və qayğısı, Elm və Təhsil Nazirliyinin birbaşa dəstəyi, eləcə də yerli və xarici tərəfdaşlarla faydalı işbirliyi, qabaqcıl təcrübələrin tətbiqinə və potensialın gücləndirilməsinə hədəflənən kompleks tədbirlər sayəsində MDU-da cari tədris ili uğurla başa çatmışdır.

### Mövcud potensial, gələcəyə baxış və modernləşmə

Hesabat dövründə universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 31 ixtisas (bakalavriat) və 15 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilmişdir. Hazırda üç fakültənin və on kafedranın mövcud olduğu universitetdə ümumilikdə 3500-dən artıq tələbə və magistrant təhsil alır. Bütövlükdə 320-dən çox əməkdaşı olan MDU-da 210 professor-müəllim heyəti üzvü çalışır ki, onlardan 5 nəfərin elmlər doktoru, 62 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi, 4 nəfərin professor və 39 nəfərin isə dosent elmi adı vardır. Bundan əlavə, cari tədris ilində MDU-da Türkiyənin Qazi Universitetindən 1 alim və ABŞ Dövlət Departamentinin Fulbright-ETA Proqramı çərçivəsində 1 amerikalı mütəxəssis fəaliyyət göstərmişdir.

Qarşıya qoyulan strateji hədəflərin ümumi ideoloji konsepsiyasına uyğun olaraq 2022/2023-cü tədris ili ərəfəsində MDU rebrendinq edilmişdir. Rebrendinq çərçivəsində MDU-nun yeni korporativ stili, yeni loqosu və yeni rəsmi saytı hazırlanmış, universitetin sloqanı, missiyası və gələcəyə baxışı müəyyən edilmişdir. Ölkənin dayanıqlı inkişafına töhfə verən yüksəkixtisaslı kadrların hazırlanması, nəticəyönümlü elmi tədqiqatların aparılması və cəmiyyətə faydalı sosial xidmətlərin göstərilməsi missiyasını üzərinə götürən MDU gələcəyə baxışda təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilməyi hədəfləmişdir. "Müasir təhsil, doğru seçim, uğurlu karyera" sloqanını seçməklə, MDU öz missiyasını layiqincə yerinə yetirəcəyinə əminliyini, davamlı modernləşməyə sadiqliyini, tələbə və məzunlarının hərtərəfli inkişafına dəstəyini ifadə etmişdir.

Cari tədris ilində MDU-nun potensialının inkişafı və strateji hədəflərinə uyğun modernləşməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunmuşdur. Aidiyyatı dövlət qurumlarının, yerli xarici tərəfdaşların dəstəyi, universitetin tələbə və müəllimkollektivinin əməyi, eləcə də idarəetmədə səmərəliliyin, çevikliyin, hesabatlılığın və şəffaflığın artırılması bu baxımdan əlverişli mühit təmin etmişdir. Son illərdə universitetdə tədris və təlim-tərbiyə prosesinin təşkilində səmərəliliyin artırılması, təhsil və elmi fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərində müsbət dinamikanın təmin edilməsi, sosialyönümlü fəaliyyətlərin genişləndirilməsi, idarəetmənin müasir tələblərə uyğun təkmilləşdirilməsi, rəqəmsallaşma sahəsində davamlı addımların atılması, yerli və beynəlxalq tərəfdaşlığın, o cümlədən sənaye ilə işbirliyinin gücləndirilməsi sahəsində əldə olunan nailiyyətlər hesabat dövründə daha da zənginləşdirilmişdir.

Hazırda MDU-da təhsilalanların və təhsilverənlərin hərtərəfli inkişafına şərait yaradan əlverişli ali təhsil mühitinin təmin edilməsi modernləşmə yolunda prioritet vəzifələrdən biri olaraq diqqət mərkəzində saxlanılır. Bu baxımdan, tələbələrin müasir bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, onların milli-mənəvi dəyərlər əsasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasına, tədqiqat, yaradıcılıq və digər qabiliyyətlərinin inkişafına, startap və innovasiya fəaliyyətlərinin təşviqinə və universitet idarəçiliyinə fəal cəlb olunmasına mühüm önəm verilir. Eyni zamanda, akademik, inzibati və texniki heyət üzvlərinin bilik və bacarıqlarının artırılması, onların karyera inkişafı və sosial rifahına xüsusi diqqət yetirilir *(şəkil 1)*.

Eləcə də, regional ekosistemin drayverinə çevrilməyi hədəfləyən MDU-da əmək bazarının tələblərinə uyğun olaraq kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədqiqat və innovasiya potensialının gücləndirilməsi, maddi-texniki bazanın genişləndirilməsi və yenilənməsi, qarşılıqlı faydalı əməkdaşlıqların inkişaf etdirilməsi prioritet fəaliyyət istiqamətlərini təşkil edir.

Son dövrdə modernləşmə istiqamətində MDU-da davamlı şəkildə görülən işlər bu ali təhsil müəssisəsinin cəlbediciliyinin artmasına da əhəmiyyətli təsir göstərmişdir. Cari tədris ili üçün universitetin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulunda, eyni zamanda yüksək balla qəbul olanların sayında artım müşahidə edilmişdir *(şəkil 1)*. Belə ki, ötən tədris ili ilə müqayisədə 2022/2023-cü tədris ili üçün MDU-ya tələbə qəbulu 30 faiz, 500-dən yuxarı balla qəbul olanların sayı isə 27 faiz artmışdır. Növbəti tədris ili üçün isə tələbə qəbulu planı 1680 nəfər proqnozlaşdırılmışdır ki, bu da cari tədris ilinin faktiki qəbul göstəricisi ilə müqayisədə 51,5 faz çoxdur.





Şəkil 1



Şəkil 2



Şəkil 3

Hazırda dövlətin hərtərəfli dəstəyi ilə universitetin müasir tələblərə cavab verən yeni kampusunun tikilməsi istiqamətində müvafiq işlər davam etdirilir. Yaxın gələcəkdə modern infrastruktura malik yeni kampusun istifadəyə verilməsi yeni dövrün universitetinə çevrilmək yolunda MDU-nun qarşıya qoyduğu strateji hədəflərə uyğun fəaliyyəti üçün geniş imkanlar təqdim edəcəkdir.

### Tədrisin səmərəli təşkili

Hesabat dövründə MDU-da tədris və təlim-tərbiyə prosesi mövcud qanunvericiliyin tələbləri, o cümlədən Nazirlər Kabinetinin müvafiq Qərarları, Elm və Təhsil Nazirliyinin aidiyyəti əmrləri və təlimatları, eləcə də bu dövlət sənədlərinin əsasında universitetin Elmi Şurası tərəfindən qəbul edilmiş qaydalar nəzərə alınmaqla ənənəvi formada həyata keçirilmişdir.

Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə dərs prosesində müasir təhsil texnologiyalarının tətbiq edilməsi və akademik heyətin bacarıqlarının artırılması əsas prioritetlər sırasında yer almış, tədrisin tələbə mərkəzli, nəticəyönümlü və səriştəəsaslı olması istiqamətində davamlı addımlar atılmışdır.

Cari tədris ilinə hazırlıqla bağlı həyata keçirilən kompleks tədbirlər sayəsində MDU tədrisin səmərəli təşkili ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gələ bilmiş, tələbə və müəllimlərin yüksək məmnunluğuna nail olmuşdur. MDU-da professor-müəllim və inzibati heyəti üzvləri, tələbə və magistrantlar ilə ənənəvi olaraq silsilə görüşlərin keçirilməsi payız və yaz semestrlərinə və imtahan sessiyalarına hazırlıq səviyyəsinin yüksəldilməsində, tədrisin səmərəli təşkili və çevik idarə olunmasında əhəmiyyətli rol oynamışdır.

MDU-da imtahan sessiyaları Azərbaycan Respublikasının elm və təhsil nazirinin "2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə" 16 dekabr 2022-ci il tarixli və "2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə" 19 may 2023-ci il tarixli əmrlərinin tələbləri və bunlara uyğun olaraq universitet rektorunun müvafiq əmrləri ilə təsdiq edilmiş qaydalar əsasında şifahi formada təşkil edilmişdir. İmtahanların şəffaf, obyektiv və mütəşəkkil keçirilməsi məqsədilə MDU-da hər bir struktur bölməyə konkret tapşırıqlar verilmiş, dəqiq funksional iş bölgüsü aparılmış və digər bütün zəruri addımlar atılmışdır. Payız imtahan sessiyasında 3500-ə yaxın tələbə və magistrantın 1000-dən çox imtahanda iştirakı, yaz imtahan sessiyasında isə 3000-ə yaxın tələbə və magistrantın 600-dən çox imtahanda iştirakı təmin edilmişdir.

Son dörd tədris ilində MDU tələbələrinin müvəffəqiyyət göstəricisi 90 faiz və ondan çox olmuşdur. Keyfiyyət göstərcisi isə təqribən 40 faizə qədər yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, 2018/2019-cu tədris ilinin yaz semestrində müvəffəqiyyət və keyfiyyət göstəriciləri müvafiq olaraq, 78,9 və 18,7 faiz təşkil etmişdir *(şəkil 2)*.

Aparılan sorğulara əsasən, MDU-da 2022/2023-ci tədris ilində imtahan sessiyalarının təşkili məqsədilə həyata keçirilən sistemli və kompleks tədbirlər tələbə və müəllim kollektivi, eləcə də valideynlər və şəhər ictimaiyyəti nümayəndələri tərəfindən müsbət qiymətləndirilmiş və bununla bağlı onların fikir və rəyləri diqqətdə saxlanılmışdır.

Hesabat dövründə MDU-da tədrisin məzmununun təkmilləşdirilməsi və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə müvafiq laboratoriyaların və digər zəruri infrastrukturun yaradılması işləri uğurla davam etdirilmişdir. Belə ki, cari tədris ilinin payız semestrində universitetdə Energetika laboratoriyası istifadəyə verilmişdir. Laboratoriyanın müvafiq cihaz və avadanlıqlarla təchiz olunmasında "Azərbaycan İES" MMC, Mingəçevir SES Silsiləsi və Mingəçevir REŞ mühüm rol oynamışdır. Eləcə də, layihənin ərsəyə gəlməsində 2021/2022-ci tədris ili ərzində MDU-da fəaliyyət göstərən Türkiyənin Qazi Universitetinin iki professoru fəal iştirak etmişdir. Hazırda mühəndislik sahəsində bir çox fənlərin tədrisinin həyata keçirildiyi sözügedən laboratoriya tələbələrin praktiki bacarıqlarının inkişafında əhəmiyyətli rol oynayır.

Bununla yanaşı, universitetin Təhsil, Mühəndislik, İqtisadiyyat və idarəetmə fakültələrinin buraxılış kurs tələbələrinin pedaqoji və istehsalat təcrübəsi müvəffəqiyyətlə başa çatmışdır. Təcrübə müddəti başlamazdan öncə təcrübə rəhbərləri və tələbələrlə görüşlər keçirilmiş və mövcud qaydalarla bağlı müvafiq məlumatlandırma həyata keçirilmişdir. Qeyd edək ki, 2022/2023-cü tədris ilində MDU-nun Təhsil fakültəsi üzrə 259, İqtisadiyyat və idarəetmə fakültəsi üzrə 200 və Mühəndislik fakültəsi üzrə isə 94 olmaqla ümumilikdə 553 tələbə 22 müəssisəyə pedaqoji və istehsalat təcrübəsinə göndərilmişdir.

Akademik və inzibati heyət üzvlərinin yeni akkreditasiya qaydaları, sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi barədə maarifləndirilməsi və təhsildə keyfiyyət təminatı sahəsində qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə MDU Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən təşkil olunan müvafiq beynəlxalq konfranslarda və təlimlərdə təmsil olunmuşdur.

### Elmi fəaliyyətdə əsas yeniliklər

Son illərdə MDU-da akademik heyətin tədqiqat bacarıqlarının artırılması, ölkənin və regionun dayanıqlı inkişafına töhfə verən, səmərəli və nəticəyönümlü elmi tədqiqatların həyata keçirilməsi, tələbələrin tədqiqat və innovasiya fəaliyyətlərinə cəlb edilməsinin təşviqi istiqamətində görülən işlərin nəticələri hesabat dövründə elmi potensialın daha da güclənməsində özünü büruzə vermişdir.

Elmi nəşrlərdə dərc edilən əsərlərə görə əməkdaşların mükafatlandırılması universitetdə elmi fəaliyyətin genişlənməsi, nüfuzlu yerli və beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrin sayının artması ilə nəticələnmişdir. 2023-cü ilin ilk altı ayı ərzində MDU əməkdaşlarının 378-i Azərbaycanda, 90-ı xaricdə olmaqla, ümumilikdə 468 tezis və məqaləsi dərc olunmuşdur. Müqayisə üçün qeyd edək ki, keçən il ərzində ümumilikdə universitet əməkdaşlarının 150 tezis və məqaləsi çap olunmuşdur. MDU üzrə Web of Science bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrin ümumi sayı 33-ə, Scopus bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrin ümumi sayı 14-ə çatmışdır. Müqayisə üçün qeyd edək ki, bu məqalələrin müvafiq olaraq 76%-i (25 məqalə) və 86%-i (12 məqalə) 2019-cu ildən 2023-cü ilin ilk 6 ayına qədər olan dövrün payına düşmüşdür *(şəkil 3)*.

Hesabat dövründə MDU-nun "Dayanıqlı inkişaf" elmi jurnalının II cildinin birinci və ikinci nömrələri olmaqla növbəti iki buraxılışı işıq üzü görmüş və elektron variantda universitetin rəsmi saytında yerləşdirilmişdir. Jurnalda MDU ilə yanaşı, ölkənin bir sıra elmi-tədqiqat institutlarında və ali təhsil müəssisələrində fəaliyyət göstərən alim və gənc tədqiqatçıların, eləcə də xarici ölkə professorlarının dayanıqlı inkişafın müxtəlif aspektlərinə həsr olunan məqalələri dərc edilmişdir.

MDU-da yerli və xarici tərəfdaş ali təhsil müəssisələrinin doktoranturasında universitetin gənc əməkdaşları və məzunlarının təhsil almasına xüsusi diqqət yetirilmişdir. Hazırda universitetin 32 əməkdaşı fəlsəfə doktoru proqramı, 6 əməkdaşı isə elmlər doktoru proqramı üzrə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində və elmi-tədqiqat institutlarında dissertant və doktorantdırlar. 2022/2023-cü tədris ilində universitetin 6 əməkdaşı fəlsəfə doktoru diplomu alıb, 3 nəfər doktorant və dissertant dissertasiya işlərini başa vurmuş və müdafiə ərəfəsindədir.Bundan əlavə, MDU-nun 2 əməkdaşı Türkiyənin Qazi Universitetində və Ankara Hacı Bayram Veli Universitetində doktorantura təhsillərini davam etdirirlər.Cari tədris ilindən etibarən, ilk dəfə olaraq respublikamızın bir sıra aparıcı ali təhsil müəssisələrində doktoranturaya qəbul planında yalnız MDU əməkdaşları üçün 14 məqsədli yerin nəzərdə tutulması regionda yüksəkixtisaslı elmi kadrlara olan tələbatın qarşılanmasına hədəflənmişdir.

Hesabat dövründə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin elmi əsaslarla öyrənilməsi və təbliğinə prioritet əhəmiyyət verilmişdir. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq MDU-da müxtəlif formatlı elmi tədbirlər və çoxşaxəli fəaliyyətlər həyata keçirilmişdir. Mayın 10-da MDU-da "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda keçirilən respublika elmi konfransı ictimaiyyətin böyük marağına səbəb olmuşdur. Bundan əlavə, cari tədris ilinin yaz semestri ərzində universitetin təşkilatçılığı və birgə tərəfdaşlığı ilə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan gəncliyi", "Ümummilli Lider: tarix yaradan Heydər Əliyev nümunəsi", "Azərbaycanda mühəndisliyin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu", "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü", "Heydər Əliyev və Azərbaycan təhsili", "Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri", "Milli dövlətçiliyimizin xilaskarı"və "Heydər Əliyevin xilaskar qayıdışı" mövzularında elmi konfranslar keçirilmişdir. Həmçinin universitetdə Ümummilli Liderin 100 illiyinə həsr olunan müxtəlif mövzularda elmi seminar, "dəyirmi masa" və mühazirələr təşkil olunmuşdur. Eləcə də, cari ilin iyun ayında Azərbaycanın Türkiyədəki Səfirliyi və MDU-nun birgə təşkilatçılığı ilə Qazi Universitetində "Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı", Ankara Hacı Bayram Veli Universitetində "Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq" mövzularında keçirilən beynəlxalq konfranslar böyük maraqla qarşılanmışdır.

Payız semestri ərzində Qarabağ Zəfərinin ikinci ildönümü və "Şuşa İli" münasibətilə MDU-da silsiləvi elmi konfranslar keçirilmişdir. Bunlar arasında Azərbaycanın Türkiyədəki səfirliyi, Türkiyənin KTO Karatay Universiteti və İstanbul Gedik Universiteti ilə birlikdə tarixi Zəfərə həsr olunan 2 beynəlxalq elmi tədbiri xüsusi qeyd etmək olar.

Hesabat dövründə MDU-da iki beynəlxalq elmi konfrans təşkil olunmuşdur. Həm 2022-ci ilin 16-17 dekabr tarixlərində MDU-da Elm və Təhsil Nazirliyinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin və Fizika İnstitutunun dəstəyi ilə "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfransa (ISCERA 2022), həm də 2023-cü ilin fevralın 24-25 fevral tarixlərində MDU və Türkiyənin İqisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun birgə təşkilatçılığı ilə Hoca Əhməd Yəsəvi adına VII Beynəlxalq Elmi Tədqiqatlar Konfransa yerli və xarici tədqiqatçılar tərəfindən böyük maraq göstərilmişdir.

Həmçinin, cari tədris ilində MDU, AzTU və Qazi Universitetinin birgə təşkilatçılığı ilə "Kibertəhlükəsizlik: əsas çağırışlar və müasir texnologiyalar" mövzusunda tələbələrin elmi-praktiki seminarı, "Azərbaycanda kiber ekosistemin formalaşması" və "Azərbaycan-Türkiyə əməkdaşlığı: İKT, energetika, loqistika və ekoloji mühit" mövzularında elmi-praktik konfranslar keçirilmişdir.

Habelə, cəmiyyətin aktual problemlərinə və əlamətdar tarixi günlərə həsr olunan, o cümlədən Anım Günü, Müstəqilliyin Bərpası Günü, Müstəqillik Günü, Konstitusiya Günü, Milli Qurtuluş Günü, Silahlı Qüvvələr Günü, 20 Yanvar faciəsi, Xocalı soyqırımı günü, Energetiklər Günü, Elm Günü, Akademik Zərifə Əliyevanın 100 illiyi, Mingəçevir şəhərinin 74 illiyi, İrəvan Müəllimlər Seminariyasının 140 illiyi və Əhməd Cavadın anadan olmasının 130 illiyi münasibətilə elmi tədbirlərin keçirilməsinə xüsusi önəm verilmişdir. Bundan əlavə, MDU əməkdaşları tərəfdaş yerli və xarici universitetlərdə təşkil edilən beynəlxalq elmi konfranslarda fəal təmsil olunmuşdurlar.

**(ardı var)**

# “Azərbaycan dili və ədəbiyyat tədrisi”




Elm və Təhsil Nazirliyinin “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalı 1954-cü il iyun ayının 15-i “Azərbaycan məktəbi” jurnalının metodik əlavəsi olaraq təsis edilmişdir. 1990-cı il dekabr ayının 3-dən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin müstəqil elmi-metodik nəşri olaraq “Ana sözu” adı ilə çap edilməyə başlayan jurnal, 1997-ci il aprel ayının 2-dən “Azərbaycan dili və ədəbiyyat tədrisi” adı ilə yenidən nəşrinə davam edir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər sırasına daxildir. “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalı il ərzində 4 dəfə çap edilən, resenziyalı, açıq girişli elmi-metodik nəşrdir. Jurnalın cari 2023-cü ilin 2-ci (276) sayı artıq çap olunmuşdur. Jurnalın bu sayında “Dilçilik məsələləri”, “Metodika”, “Qrammatika”, “Azərbaycan ədəbiyyatı”, “Türk ədəbiyyatı” və “Ədəbi Mühit” rübrikaları altında 11 məqalə dərc edilmişdir. “Dilçilik məsələləri” bölməsi ilə başlayan bu sayda, pedaqogika üzrə elmlər doktoru, Nabat Cəfərovanın “Orfoqrafiyanın morfologiya ilə inteqrativ tədrisi” adlı məqaləsi yer alır. Məqalədə orfoqrafiyanın dil qaydaları, o cümlədən morfologiya ilə əlaqələrin əhəmiyyətindən, təlimin istiqamətinin qurulmasında şagirdlərin bu kimi bilik və bacarıqlarının artırılması məsələlərindən söhbət açılır.

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Fəridə Səfərəliyevanın həmin rubrikada dərc olunan “Orfaqrafiya təlimində istifadə edilən iş növləri” başlıqlı məqaləsi,şifahi nitq-yazılı nitqin formalaşması və inkişafı üçün zəmin yaradaraq fonematik təhlil prosesində nitqin səslərini və sözlərini düzgün tələffüz etmək, eşitmək və nitq səslərini fərqləndirmək, savadlı yazı üçün zəruri olan məsələləri etmək kimi fikirləri əhatələyir.

“Metodika” rubrikasında “Azərbaycan dili dərslərində müasir təlim metodları ilə dil qaydalarının öyrədilməsi yolları” adlı məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Könül Məmmədli tərəfindən qələmə alınmışdır. Yazıda Azərbaycan dili dərslərində müasir təlim metodları ilə dil qaydalarının öyrədilməsi metodikasından bəhs olunur.

“Sintaktik funksiyaların formalaşmasında qoşmaların rolu” məqaləsi filologiya üzrə fəlsəfə doktoru, dosent Rəhilə Hümmətova tərəfindən “Grammatika” bölməsində oxuculara təqdim olunan ilk məqalədir. Bu yazıda müəllif, sintaktik vahidlərin qurulmasında müstəqil və köməkçi sözlər, işarə və nisbi əvəzliklər, cümlə üzvləri, cümlə sıralaması və intonasiyanın əsas faktor kimi iştirakı və qoşmaların sadalananlarla əlaqəli olmasından söhbət açılır.

Bu bölmədə dərc edilən növbəti məqalə “Qeyri-həmcins təyinlər”adlanır. Məqaləni görkəmli tədqiqatçı, təhsil eksperti Nabatəli Qulamoğlu qələmə alaraq qeyri-həmçins təyinlərin tədqiqat tarixinə qısa ekskurs etməklə onların müqayisəli şəkildə öyrənilməsi məsələlərini önə çəkir.

“Azərbaycan ədəbiyyatı” rubrikasında filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Təyyar Salamoğlu “Cəfər Cabbarlı dramaturgiyasında müəllif dünyagörüşü və tarixilik” adlı məqaləsilə ədibin dramaturgiyasında tarixiliyin milli birlik, türkçülük və dini inancdan irəli gələn gücün estetik ifadəsi olduğunu nəzərə çatdırır.

Bu bölmədəki növbəti “Qasım bəy Zakirin XIX əsr ictimai satiranın, uşaq ədəbiyyatının yaranması və inkişafında rolu” başlıqlı məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Pərixanım Soltanqızı tərəfindən yazıya alınmışdır. Məqalədə,sənətkarın XIX əsr ictimai satiranın, uşaq ədəbiyyatının yaranması və inkişafındakı rolu, ədəbi-bədii yaradıcılığı, eləcə də bir sıra mənzum hekayə və təmsilləri təhlil olunaraq diqqət önünə çəkilir.

“Qədim türk yazılı dastanları: Göytürk dastanları nümunəsində” məqalə “Türk ədəbiyyatı” rubrikasında filologiya üzrə fəlsəfə doktoru Aynur Səfərli tərəfindən hazırlanaraq- türk yazı tarixinin başlanğıcından,Orxon-Yenisey abidələri də daxil olmaqla günümüzə gəlib çatan bir sıra yazılı türk nümunələri Göytür dastanları əsasında tədqiqata cəlb olunmuşdur.

“Türk ədəbiyyatı” rubrikasında yer alan növbəti məqalənin müəllifi Özbəkistan Respublikası Namanqan Dövlət Universitetinin doktorantı Dilşadə Quliyevadır. O, “Codex Cumanicus-da durna haqqında tapmacanın poetikası” adlı məqaləsində, Codex Cumanicus (Kuman tapmacaları) -tapmacalarının müasir formalarını və əlyazmadakı gizli obyekt təsvirlərini özbək və qırğız tapmacaları ilə əlaqəli və yaxud müqayisəli olduğunu tədqiq və təhlil etmişdir.

“Ədəbi mühit” bölməsindəki “Əhməd Cavad yaradıcılığında milli tərbiyə nümunəsinin yeri və rolu” adlı məqalə pedaqogika elmləri doktoru, dosent Kamal Camalov tərəfindən yazıya alınıb. Məqalədə müəllif, görkəmli sənətkarın milli ruh və vətənpərvərlik məzmunlu şeirlərində yeniyetmə və gənclər üçün tərbiyə əhəmiyyəti daşıyan məqamların daha çox olduğunu göstərməyə çalışır.

“Konseptual inteqrasiya kommunikasiya şəbəkələri kimi” məqalə Azərbaycan Dillər Univeritetinin elmlər doktorluğu üzrə dissertantı, filologiya üzrə fəlsəfə doktoru Heydər Quliyev tərəfindən işlənmişdir. Məqalədə sosial qarşılıqlı əlaqədə bir sıra müəlliflərin geniş yayılmış konseptual metafor nəzəriyyələri inteqrasiya nəzəriyyələrinə alternativ olaraq təhlil olunmuşdur.

Məqalələr ilə daha ətraflı *tall.edu.az* saytından tanış ola bilərsiniz.

Yarandığı gündən aktuallığı və oxunaqlığı ilə seçilən, ziyalılarımızın stolüstü kitabına çevrilən “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalı hazırda da öz ənənəsini qoruyur. Dilçiliyin və ədəbiyyatşünaslığın bütün sahələrinə aid yüksək keyfiyyətli elmi məqalələr dərc edən bu jurnal türk, ingilis və rus dillərində də orijinal məqalələrin nəşrini həyata keçirir. “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalı tədqiqat işlərinin sərbəst şəkildə ictimaiyyətə təqdim edilməsinin daha geniş və qlobal bilik mübadiləsini dəstəkləməsi prinsipi əsasında fəaliyyət göstərən açıq girişi təmin edən (Open-Access) resenziyalı elmi-metodik nəşr kimi, elmi ictimaiyyət, dilçi-alimlər, filologiya sahəsi üzrə mütəxəssislər, doktorant və magistrantlar, Azərbaycan dili və ədəbiyyat müəllimləri və uyğun ixtisas üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu məqsədlə jurnalın rəsmi internet saytı *(www.tall.edu-.az)* yaradılmış və geniş oxucu kütləsinin istifadəsinə verilmişdir. Çap olunan bütün məqalələr *Creative Commons Attribution-Non Commercial 4.0 International (CC-BY-NC4.0)* lisenziyasının şərtləri əsasında yayımlanır. Saytda jurnalın tarixi, məqsədi, redaksiya heyəti və üzvləri, o cümlədən yeniliklər haqqında da məlumatlar verilir. Müəlliflərlə yüksək səviyyəli elmi məqalələrin dərci üçün Məqalə çağırışı bölməsi vasitəsilə əlaqə yaradılır. Müəlliflik hüquqları və ədalətlilik prinsipləri daima redaksiya tərəfindən qorunur. Redaktor və ya redaksiya heyətinin hər bir ədəbi üzvü təqdim edilmiş əlyazmalara məxfi sənədlər kimi baxır, məqalə haqqındakı məlumatı müvafiq müəllif, rəyçilər və naşirdən başqa heç kimə açıqlamır. “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalının uğurlu nailiyyətlərindən biri də arxivinin yaradılmasıdır. Fəaliyyətə başladığı ildən (1954) bu günə qədərki bütün sayları saytın “Arxiv” səhifəsində yerləşdirilmişdir.

Hal-hazırda jurnal Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, ETN-nin “Azərbaycan məktəbi” və “Məktəbəqədər və ibtidai təhsil” jurnalları ilə tərəfdaşlıq edir.

Jurnalın son dövrlər əldə etdiyi uğurlu nailiyyətləri sırasına Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasına daxil olmağı və bir sıra tanınmış beynəlxalq bazalarda xülasələndirmə və indekslənməsi olmuşdur:

1. ERIH PLUS
2. IndexCopernicus
3. MIAR
4. Idealonline
5. DRJI
6. ASOS indeks
7. International Scientific Indexing ISI
8. AdvancedSciencesIndex
9. Calameo.com
10. Academia.edu
11. Archive.org
12. İstina
13. Issuu
14. ReadEra.org
15. Yumpu.com
16. Scribd.com
17. CiteFactor
18. AcademicResearchIndex/ResearchBib
19. RootIndexing
20. EurasianScientificJournalIndex
21. JournalsDirectory
22. SJIF
23. ROAD

Hazırda jurnalımızın növbəti sayı (2023, №3, 277) üzrə qəbul edilən məqalələr tam hazırlanmış və ilkin çap mərhələsindədir.

Ümid edirik ki, dilimizin saflığı və işləkliyi, tədqiqi və təbliği yolunda olan fəaliyyətimiz daimi olacaqdır.

**Sehran SƏFƏROV,**
*“Azərbaycan dili və ədəbiyyat tədrisi” elmi-metodik jurnalının baş redaktoru*

# “Peşə təhsili və insan kapitalı” jurnalının yeni sayında




Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan “Peşə təhsili və insan kapitalı” jurnalının yeni sayı (2023, cild 6, №2) işıq üzü gördü. Jurnalın oxucuları bu sayda pedaqogika, iqtisadiyyat, texnika, metodika və digər bölmələr üzrə maraqlı məqalələr və metodiki yazılarla tanış ola biləcəklər.

Jurnalın ilk səhifələrində Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına göstərdiyi diqqət və qayğısından bəhs edən “Heydər Əliyevin təhsil siyasəti” adlı məqalə yer alıb. Məqalənin müəllifi, Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqoji elmlər doktoru Kamal Camalov Heydər Əliyevin Azərbaycanın təhsil sisteminin inkişafına ayırdığı diqqət və qayğısını tədqiq-təhlil obyektinə çevirərək Ümummilli Liderin bu sahədəki misilsiz xidmətlərini oxucuların nəzərinə çatdırmışdır.

“Pedaqogika” bölməsi üzrə dərc olunan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının müdiri, pedaqogika elmləri doktoru, professor Əbülfət Pələngovun “Peşə təhsilində informasiya-kommunikasiya texnologiyalarının rolu” adlı məqaləsində Azərbaycanda İKT-nin inkişaf dinamikası, onun peşə və texniki təhsilə, ümumilikdə təhsil sisteminə daxil edilməsinin təlim və öyrənmək üçün genişspektrli nəticələrə malik olması vurğulanır.

Həmin bölmə üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Rəfail Cəfərovun dərc olunan “Bədii məmulatların istehsalında tətbiq edilən ağac növləri, onların kimyəvi, fiziki, mexaniki xassələri və teksturası” adlı məqaləsində oxucular dekorativ-tətbiqi incəsənətin müxtəlif sənət nümunələri haqqında, bu sahələrdə istifadə olunan qiymətli ağac növləri, əsas xüsusiyyətləri, onların sənayedəki əhəmiyyəti və keyfiyyətinin təyin edilməsi zamanı bu növlərin önəmli rol oynaması barədə maraqlı faktlarla tanış ola bilərlər.

“İqtisadiyyat” bölməsi üzrə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun elmlər doktoru üzrə dissertantı Famil Niftiyevin “Dayanıqlı inkişafda insan kapitalının qiymətləndirilməsi” adlı dərc olunan məqaləsində Azərbaycanda insan kapitalının dünyadakı mövqeyi təhlil olunaraq insan kapitalının prioritetlərinin həyata keçirilməsi yolları, dayanıqlı inkişafda insan kapitalının qiymətləndirilməsi, eləcə də alimlərin dayanıqlı inkişafla bağlı fikirləri öz əksini tapmışdır.

Bu bölmə üzrə dərc olunan “Asimmetrik informasiya şəraitində elektron ticarətin inkişafı” adlı məqalədə müəllif, Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı Elmar Əhmədov Azərbaycanda başlanğıc mərhələsində olan elektron ticarətin inkişafında qarşıya çıxan maneələr və problemlərin həlli yollarını araşdırmış, elektron ticarətlə bağlı dünya təcrübələrinin təhlilini vermişdir.

Jurnalın “Texnika” bölməsində oxucular Azərbaycan Texniki Universitetinin Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrasının dosenti Ənvər Ahəngari və həmin kafedranın baş müəllimi, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin əməkdaşı Naridə Zülfüqarovanın birlikdə yazdıqları “Avtomobillərin idarə edilməsinin avtomatlaşdırılması şəraitində yol hərəkətinin təşkili” məqaləsi ilə tanış olacaqlar. Məqalədə “sürücü-avtomobil-yol-mühüt” sisteminin elementlərinin təhlilindən, “ağıllı nəqliyyat” sistemlərinin inkişafında aparıcı yer tutan avtomobillərin idarə edilməsinin avtomatlaşdırılmasından, bu sahədə istifadə olunan terminlərin terminoloji problemlərindən danışılır.

“Beynəlxalq əlaqələr (layihələr, təcrübələr)” bölməsində müasir dövrdə işəsaslı öyrənmə təcrübələrinin gücləndirilməsi və genişləndirilməsi istiqamətində görülən beynəlxalq tendensiyaların təhlilini verən Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsil şöbəsinin baş mütəxəssisi, emal sənayesində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyasının üzvü, BƏT və GİZ-in Azərbaycandakı eksperti, kurikulum üzrə ekspert Leyla Vahabova “Peşə təhsilində Dual sistems modeli” adlı məqaləsində ölkəmizdə səriştəli mütəxəssis hazırlığında Dual Təhsil Proqramının həyata keçirilməsinin əhəmiyyətindən bəhs edir. Oxucular bu məqalədə proqram çərçivəsində respublikada beynəlxalq və yerli layihələr üzrə bölgələrdə keçirilən təlimlər, bu təlimlərin mütəxəssis hazırlığındakı rolunun əhəmiyyəti və səmərəliliyi barədə tanış ola bilərlər.

Jurnalın “Metodika və innovasiyalar” bölməsində peşə seçiminə təsir edən amillərin araşdırılmasının vacibliyi Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsil şöbəsinin aparıcı mütəxəssisi Səlimə Quliyevanın “Peşə seçimində rol oynayan amillər” adlı məqaləsində öz əksini tapıb. Məqalədə təqdim edilən təkliflər (övladlarının sağlam karyera inkişafı üçün valideynlərə verilən) və tövsiyələr (müəllimlərə edilən), inanırıq ki, oxucularımız üçün də maraqlı olacaq.

Ümumilikdə “Peşə təhsili və insan kapitalı” jurnalının yeni sayında Aynur Kərimovanın “Musiqi estetikasının parametrləri estetik tərbiyənin vasitəsi kimi”, Nuridə Quliyevanın “Təhsilalanların milli ruhda tərbiyə edilməsində müəllim şəxsiyyətinin rolu və təkmilləşdirilməsi”, Lalə Allahverdiyevanın “Kompetensiya insan resurslarına yeni yanaşmanın təzahürü kimi”, Aynur Qasımovanın “Ali pedaqoji təhsilin məzmununun təkmilləşdirilməsinin tarixi aspektləri”, Zənurə Əliyevanın “İnşaat materialları sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyin daxili və xarici amillərinin təhlili”, Yasəmən Quluzadənin “İxracın səmərəliliyinin qiymətləndirilməsi”, Gülnarə Hüseynova və Səbinə Hacıyevanın “İdarəetmə modellərinin müqayisəli təhlili”, Niyazi Nəcəfovun “Arı ailələrinin qışa hazırlanması”, Allahverdi Şərifov və Lamiyə Xəlilovanın “Beynəlxalq avtomobil yük daşımalarında sürücü peşəkarlığının əhəmiyyəti”, Royal Allahverdiyevin “Nəqliyyat şəbəkəsinin AnyLogic proqramı vasitəsilə modelləşdirilməsi”, İradə İbrahimova və Qadir Qafarovun “Ürək-damar sisteminin differensial diaqnostikası”, Gülbəniz Şirinbəyovanın “Peşə təhsilinin əmək bazarının tələblərinə uyğun təşkilinin üstünlükləri” adlı məqalələri də oxuculara təqdim olunub.

İnanırıq ki, oxucularımız jurnalın səhifələrini bəzəyən bu məqalələrdən bəhrələnəcək və öz fəaliyyətlərində tətbiq edəcəklər.

**Günel ƏLƏSGƏROVA,**
*“Peşə təhsili və insan kapitalı” jurnalının şöbə redaktoru*







# Valideynlər üçün “Yay məktəbi”nə start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşəbbüsü ilə paytaxtdakı ümumi təhsil məktəblərində valideynlər üçün “Yay məktəbi”nə start verilib.

“Yay məktəbi”nin keçirilməsində əsas məqsəd uşaqlarla yaş dövrünə uyğun davranışla bağlı valideynləri maarifləndirmək, şagirdlərin təhsil nailiyyətlərinin artırılması baxımından məktəb-valideyn əməkdaşlığını müzakirə etmək, yeni tədris ilində qarşıya qoyulan hədəflərlə bağlı valideynləri məlumatlandırmaq, həmçinin məktəb-valideyn münasibətlərini təkmilləşdirmək, məktəbdaxili proseslərə valideynlərin cəlb olunmasına dair fikir mübadiləsi aparmaq, effektiv məktəb mühitini formalaşdırmaq və məktəbin nüfuzunun artırılmasına nail olmaqdan ibarətdir.

Paytaxtdakı 193 nömrəli tam orta məktəbdə təşkil olunmuş “Yay məktəbi”nin iştirakçılarını salamlayan məktəbin direktoru Nihal Hacıyeva “Şagird davranış qaydaları, onların tətbiqi və nəticələri” mövzusunda təlim proqramını təqdim edib. Valideynlərlə qarşılıqlı fikir mübadiləsi şəraitində keçən təlimdə maraq doğuran məsələlərə aydınlıq gətirilib, konkret nümunələr əsasında müzakirələr aparılıb.

Valideynlər üçün “Yay məktəbi”nin açılış mərasimində çıxış edən BŞTİ-nin Təhsilin keyfiyyətinə nəzarət sektorunun müdiri Anar Mustafazadə layihənin əhəmiyyəti barədə ətraflı məlumat verib. Bildirib ki, məktəb-ailə münasibətlərinin tənzimlənməsi, qarşılıqlı əməkdaşlığın daha səmərəli müstəviyə köçürülməsi üçün çevik və şəffaf mexanizmlərin formalaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Müəllim-şagird-valideyn üçbucağının uğurlu alınması üçün valideynlərin təhsil prosesinə yönləndirilməsini əhəmiyyətli məsələlərdən biri hesab edən sektor müdiri bu baxımdan valideynlər üçün “Yay”məktəbi”nin uğurlu təşəbbüs olduğunu söyləyib. A.Mustafazadə “Qiymətləndirmənin (dəyərləndirmənin) insan həyatındakı rolu və qiymətləndirmə prosesində valideyn təklifləri” mövzusunda təqdimatla çıxış edib.

“Yay məktəbi”nin proqramına əsasən təqdim olunan “Övlad-valideyn münasibətləri” mövzusunda psixoloji-interaktiv iş, sual-cavab sessiyaları da valideynlər tərəfindən maraqla qarşılanıb.

“Yay məktəbi” çərçivəsində valideynlərin robototexnika sahəsində ixtisaslaşmış müəssisələrə ekskursiyaları da nəzərdə tutulub.

Qeyd edək ki, 3 gün davam edəcək “Yay məktəbi”nin sonunda iştirakçılara sertifikatlar veriləcək.

MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

Müasir təhsil!
Doğru seçim!
Uğurlu karyera!



NİYƏ MDU?

- Yüksək nəzəri biliklər və praktiki bacarıqlar
- Müxtəlif təqaüd proqramları
- Yerli və beynəlxalq mübadilə proqramları
- Könüllülük fəaliyyəti
- Fərqli mövzularda təlim və seminarlar
- Startap layihələrin dəstəklənməsi
- Münasib təhsil haqqı və yaşayış xərcləri
- Müxtəlif idman növləri ilə məşğul olmaq imkanı
- Asudə vaxtın səmərəli təşkili
- Vətənpərvərlik ruhunun təbliği
- Yenilənən universitet modeli
- Zəngin tələbə həyatı
- Multidisiplinarlıq

mdueduaz (+994 24) 275-85-49

Tərəfdaşlarımız:

| | Təhsil forması | | Təhsil haqqı (manatla) | |
|---|---|---|---|---|
| **I qrup** | Əyani | Qiyabi | Əyani | Qiyabi |
| Fizika müəllimliyi | + | - | 1500 | - |
| Riyaziyyat müəllimliyi | + | - | 1500 | - |
| Riyaziyyat və informatika müəllimliyi | + | - | 1500 | - |
| Kompüter elmləri (YENİ) | + | - | 1500 | - |
| Ekologiya mühəndisliyi | + | + | 1500 | 1300 |
| Elektrik və elektronika mühəndisliyi | + | + | 1500 | 1300 |
| Energetika mühəndisliyi | + | + | 1500 | 1300 |
| Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi (YENİ) | + | - | 1500 | - |
| İnformasiya təhlükəsizliyi | + | + | 1500 | 1300 |
| İnformasiya texnologiyaları | + | + | 1500 | 1300 |
| Kompüter mühəndisliyi | + | + | 1500 | 1300 |
| Nəqliyyat mühəndisliyi | + | + | 1500 | 1300 |
| Sənaye mühəndisliyi | + | - | 1500 | 1300 |
| **II qrup** | | | | |
| Biznesin idarə edilməsi | + | + | 1500 | 1300 |
| Dövlət və bələdiyyə idarəetməsi | + | + | 1500 | 1300 |
| İqtisadiyyat | + | + | 1500 | 1300 |
| Maliyyə | + | + | 1500 | 1300 |
| Marketinq | + | + | 1500 | 1300 |
| Menecment | + | + | 1500 | 1300 |
| Mühasibat | + | + | 1500 | 1300 |
| Türizm bələdçiliyi | + | + | 1500 | 1300 |
| Turizm işinin təşkili | + | + | 1500 | 1300 |
| **III qrup** | | | | |
| Azərbaycan dili və ədəbiyyatı müəllimliyi | + | - | 1500 | - |
| Dil və ədəbiyyat müəllimliyi (ingilis dili üzrə) (YENİ) | + | - | 1500 | - |
| İbtidai sinif müəllimliyi | + | - | 1500 | - |
| Məktəbəqədər təhsil | + | - | 1500 | - |
| Tarix müəllimliyi | + | - | 1500 | - |
| Xarici dil müəllimliyi (ingilis dili üzrə) | + | - | 1500 | - |
| Sosial iş (YENİ) | + | - | 1500 | - |
| **IV qrup** | | | | |
| Kimya müəllimliyi | + | + | 1500 | - |
| Ekologiya | + | - | 1500 | 1300 |


# Əylən, öyrən, istirahət et

**"Məktəblinin dostu"nun təşkilatçılığı ilə layihənin tətbiq olunduğu paytaxtdakı ümumi təhsil müəssisələrində "Yay məktəbi" keçirilir.**



## "Məktəblinin dostu" tərəfindən "Yay məktəbi" keçirilir

"Yay məktəbi"nin məqsədi məktəblilərin yay tətili dövründə onlara əyləncəli və öyrədici proqramlar təşkil etməklə zəruri bilik və bacarıqlarının möhkəmləndirilməsinə, asudə vaxtlarını səmərəli keçirmələrinə dəstək olmaqdan ibarətdir.

"Yay məktəbi"nin proqramına əsasən burada şagirdlər üçün təlim, seminar və informativ sessiyalar, eyni zamanda müxtəlif idman yarışları, əyləncəli saatlar təşkil olunur.

"Məktəblinin dostu" layihəsinin əməkdaşları "Yol hərəkəti qaydaları", "İlkin tibbi yardım", "Fövqəladə hallarda davranış qaydaları", "Sosial şəbəkələrdən faydalı istifadə", "İnternet təhlükəsizliyi", "Düzgün danışıq və nitq bacarıqlarının həyatımızda rolu", "Təbiəti qoruyaq", "Heyvanlara qayğı", "Təlimçi məktəbli" kimi mövzuları əhatə edən maarifləndirici təlimlər həyata keçirirlər.

Qeyd edək ki, "Məktəblinin dostu" layihəsinin əhatə etdiyi ümumi təhsil müəssisələrinin şagirdləri "Yay məktəbi"nə dərs ili ərzindəki müraciətləri əsasında könüllü şəkildə qatılıblar.

İki aylıq müddəti əhatə edən "Yay məktəbi"nə iyul ayı ərzində V və VI, avqust ayında isə VII və VIII sinif şagirdlərinin cəlb olunması nəzərdə tutulub.








## Karate üzrə beynəlxalq turnirdən uğur qazanan paytaxt məktəbliləri

Gürcüstanda keçirilən "Batumi Open" beynəlxalq karate turnirində paytaxt məktəbliləri yüksək nəticə əldə ediblər.

Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərinin 7 şagirdi karate üzrə beynəlxalq turnirdə ölkəmizi layiqincə təmsil edib.

İdmançılardan 3-ü I, 3-ü II, 1-i isə III yeri tutaraq Vətənə qızıl, gümüş, bürünc medallarla qayıdıblar.

Bakı şəhəri 153 nömrəli tam orta məktəbin şagirdi Xədicə Mürsəlova, 167 nömrəli tam orta məktəbin şagirdi Mikayıl Nağıyev, 47 nömrəli tam orta məktəbin şagirdi Kamil Kərimli I yerin qalibi olublar. 211 nömrəli tam orta məktəbin şagirdi Davud Muradov, 153 nömrəli tam orta məktəbin şagirdi Əminə Quliyeva, 145 nömrəli tam orta məktəbin şagirdi Rəsul Qaraxanov II yeri tutublar. 95 nömrəli tam orta məktəbin şagirdi Hüseyn İsayev isə III yerin sahibi olub.

Qeyd edək ki, idmançılarımız turnirdə bir neçə dəfə erməni təxribatına qarşı layiqli cavab veriblər. Belə ki, 153 nömrəli tam orta məktəbin şagirdi Xədicə Mürsəlova mükafatlandırılma mərasimində fəxri kürsüyə qalxarkən turnirdə II yeri tutan erməni idmançının Azərbaycan bayrağına qarşı təxribatçı hərəkətinin qarşısını almaqda qətiyyəti ilə fərqlənib.

Onu da qeyd edək ki, Batumidə beynəlxalq turnir 10 ölkənin iştirakı ilə keçirilib. Azərbaycan komanda hesabı ilə beynəlxalq turnirdə I yerə çıxıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

# "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi Şəxsi

kafedralar üzrə vakant olan vəzifələrin tutulması üçün müsabiqə

## ELAN EDİR:

**"Gəmiqayırma və gəmi təmiri kafedrası" üzrə**

*"Materialşünaslıq və materiallar texnologiyası" (tədris ingilis dilində) – saathesabı ödənişlə*

**"Gəmi energetik qurğuları kafedrası" üzrə**

*"Hidravlika və hidromexanika" (tədris Azərbaycan və rus dillərində) – 0,5 ştat – 1 yer*

*"Gəmi köməkçi mexanizmləri, sistemləri və onların istismarı", "Gəmi energetik qurğularının texniki istismarı" – 0,25 ştat – 1 yer*

**"Humanitar fənlər" kafedrası üzrə**

*"Azərbaycan tarixi" (tədris ingilis dilində) – 0,5 ştat – 1 yer*
*"Rus dili" – 0,25 ştat – 1 yer*

Müvafiq ixtisas üzrə elmi dərəcəsi və elmi adı olanlara üstünlük verilir.

Sənədlər təlimata uyğun olaraq 15 avqust 2023-cü il tarixinədək *almaz.imanova@asco.az* elektron ünvanına göndərilməlidir.

**Tələb olunan sənədlər**

- Şəxsiyyət vəsiqəsinin surəti;
- Kadrlar uçotunun şəxsi vərəqəsi;
- Tərcümeyi-hal;
- Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
- Elmi və elmi-metodiki işlərin siyahısı.

**Ünvan:** Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 18.

**Əlaqə telefonu:** 404-37-00 (3220)

**REKTORLUQ**

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5566 **Sifariş** 1773

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Nəbiyeva Təhminə Sarıxan qızına verilmiş A-112208 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Hətəmzadə Ramiz Əhməd oğluna verilmiş E-204093 nömrəli tam orta təhsili haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb** tərəfindən 2014-cü ildə bitirmiş Qəhrəmanlı Elxan Azik oğluna verilmiş A-022465 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Qızlar Liseyini** 2009-cu ildə bitirmiş Quliyeva Günel Səfər qızına verilmiş B-580180 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 215 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Mehdiyeva Turanə Sabir qızına verilmiş B-045300 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Vəliyeva Nigar Bəhram qızına verilmiş B-357167 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Qurbətova Züleyxa Əhməd qızına verilmiş A-076617 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 143 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Niftaliyeva Təranə Mehman qızına verilmiş 344117 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Daş Salahlı kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyeva (Abbasova) Ülviyyə Elxan qızına verilmiş B-103650 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Peştəsər kənd ümumi orta məktəbi 1991-ci ildə bitirmiş İmanova Mədinə Mirzəkişi qızına verilmiş A-689648 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2020-ci ildə bitirmiş Fərəcova Gülşən Təyyar qızına verilmiş E-277605 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Tağızadə Məmməd Yaqub oğluna verilmiş A-195186 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Qədirli Kamil Kifayət oğluna verilmiş B-671574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Texniki Kolleci** tərəfindən 2014-cü ildə Cabbarova Aynur Rəfael qızına verilmiş AA-042482 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Alırzayeva Aynur Nurudin qızına verilmiş A-403168 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 55 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Hacıyeva Piranə Fərhad qızına verilmiş A-554905 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Fərhadov Kamran Bəhram oğluna verilmiş B-656057 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Qaşqaçay kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Möhsümlü Günel Hamzat qızına verilmiş B-611447 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2017-ci ildə Yekəyeva Cəmilə Eyvazovnaya verilmiş AA-103156 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Universiteti** tərəfindən 2000-ci ildə Şirəliyev İbrahim Kifayət oğluna verilmiş A-065374 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Kərimli Murad Musa oğluna verilmiş C-105401 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1995-ci ildə Yaqubova Nəzakət Yaqub qızına verilmiş AB-I-026603 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**A.Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumu** tərəfindən 1994-cü ildə Yaqubova Ziyafət Yaqub qızına verilmiş PT-I-113530 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Musiqi Akademiyası** tərəfindən 2001-ci ildə Yaqubova Ziyafət Yaqub qızına verilmiş A-085998 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2021-ci ildə Nəsibova Yeganə Sahib qızına verilmiş AA-156660 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərkibində Musiqi Kolleci tərəfindən 2021-ci ildə Abbasova Afaq Aqilovnaya verilmiş AA-151553 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 6 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Zülfüqarlı Zülfüqar Mübariz oğluna verilmiş A-332525 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəb tərəfindən 2020-ci ildə Rzazadə Qədir Bəxtiyar oğluna verilmiş E-341030 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2017-ci ildə Mürsəlizadə İsmayıl İlqar oğluna verilmiş A-143109 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Salmanova Tünzalə Əfqan qızına verilmiş AT-000264 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2021-ci ildə İbrahimov Murad Ehtiram oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** (Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci) tərəfindən 2015-ci ildə Qulamov Zaur Qulam oğluna verilmiş AA-070587 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2005-ci ildə bitirmiş Musayeva (Kazımova) Xatirə Sücayət qızına verilmiş A-191804 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qaraçala qəsəbə tam orta məktəbi 2001-ci ildə bitirmiş Musayeva Günel Məcnun qızına verilmiş A-526985 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Kolanı kənd ümumi orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Nəhmədov Maqsud Zaur oğluna verilmiş 377270 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Şükürova Aynurə Xanlar qızına verilmiş 093403 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yenikənd kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Abbasov Tofiq Ramin oğluna verilmiş C-681639 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Nağıyev Ceyhun Şakir oğluna verilmiş 373932 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2019-cu ildə Alkazak Hasan Gürbüz oğluna verilmiş C-054159 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 36 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Aslanov Aslan Cahan oğluna verilmiş B-614782 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Kərimova Aytən Rizvan qızına verilmiş A-028663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsgəndərli Emin Məzahim oğluna verilmiş B-577588 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 37 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş İbrahimov Hüseyn İlham oğluna verilmiş E-344707 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 36 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Qasımov İlkin İsa oğluna verilmiş E-134397 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 42 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədov Ömər Ehtiram oğluna verilmiş E-344982 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Əmirxanlı kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Kərimov Fərhad Novruz oğluna verilmiş 133478 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** 3 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədova Mətanət Muxtar qızına verilmiş 055954 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Aşağı Qışlaq kənd tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Əhmədov Elsevər Vəli oğluna verilmiş A-374801 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 180 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Niftəliyeva Günel Aydın qızına verilmiş A-711613 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Kərimova Zərnigar Ramin qızına verilmiş C-175379 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 82 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Həzrətov Şeyxibrahim Rafail oğluna verilmiş C-172336 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 180 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Haqverdiyeva Fəridə Əziz qızına verilmiş B-044493 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**8 nömrəli Bakı Peşə Liseyi** (Tikinti və Quraşdırma işləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2000-ci ildə Haqverdiyeva Fəridə Əziz qızına verilmiş AB-047544 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 4 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Seyidova Pərvanə Alim qızına verilmiş 532372 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Sarıbulaq kənd tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Qazıyev Vüsal Şamil oğluna verilmiş C-291583 nömrəli ümumi orta təhsil haqqında attestat tapıldığı üçün etibarlı sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2011-ci ildə Cəfərova Təranə Əlikişi qızına verilmiş BB-II-117044 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Politexnik Texnikumu** (Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci) 1980-ci ildə bitirmiş Mirzəyev Rəhim Cəlilağa oğluna verilmiş БТ-606755 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Bəxtiyarova Firuzə Musa qızına verilmiş A-340806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əsədova (Babayeva) Könül Mehdi qızına verilmiş 660897 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax Dövlət Sosial-İqtisadi Kollec** tərəfindən 2021-ci ildə Əliyeva Səlimə Fərhad qızına verilmiş AA-160484 nömrəli subbakalavr diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 20 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Bayramova Ceyran Sahəddin qızına verilmiş C-512190 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Nəsimikənd kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhmədova (Kərimova) Yetər Mirdas qızına verilmiş B-439697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Öncəqala kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədova (Əliyeva) Nurlanə Gülməmməd qızına verilmiş B-041632 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1991-ci ildə Hümbətov Hümbət Dursun oğluna verilmiş HB-019401 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Allahyarova Ülviyyə Akif qızına verilmiş A-187822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 160 nömrəli Klassik gimnaziyanı 2014-cü ildə bitirmiş Quliyev Məhəmməd Ramiz oğluna verilmiş A-306457 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov və kollektivi universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynovaya əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yusif Alıyev və Sarvan İbrahimov Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynovaya əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

QS WORLD UNIVERSITY RANKINGS 20 YEARS



1986-cı ildə Kembric Universitetində iqtisadiyyat üzrə bakalavr təhsilini başa vuran Nunzio Quacquarelli MBA dərəcəsi almaq qərarına gəlməmişdən öncə bir neçə il konsaltinq sahəsində çalışıb. "MBA dərəcəsi almaq məqsədilə yerlərin axtarışı prosesində biznes məktəbləri və ya universitetləri müqayisə etmək üçün məlumat və ya verilənlərin olmadığını aşkar etdim, buna görə də mən çalışdığım konsaltinq firmasındakı tərəfdaşların şifahi tövsiyələrinə güvənməli oldum", - deyə Nunzio Quacquarelli bildirib. O, bir qədər sonra, 1990-cı ildə Pensilvaniya Universitetinin Uorton Məktəbində (Wharton School) oxumağa qərar verib. Məhz burada QS özünün ilk işlərinə start verib. O qeyd edir ki, QS əvvəlcə informasiya boşluğunu doldurmaq və xarici tələbələrə biznes məktəbləri haqqında müqayisəli məlumatlara və verilənlərə giriş imkanı yaratmaq üçün tələbə layihəsi kimi fəaliyyətə başlayıb. ""Wharton School"-da oxuyarkən mən QS-i biznes kimi qurmuşdum. 33 il sonra hələ də 1990-cı ildə olduğu kimi eyni missiyamız var: dünyanın istənilən yerində məqsədyönlü insanlara təhsil nailiyyətləri, beynəlxalq hərəkətlilik və karyera artımı vasitəsilə öz potensiallarını həyata keçirmək imkanı vermək. Bizim missiyamızla çox maraqlanırıq və QS-də etdiyimiz hər şey onun ətrafında fırlanır".

# QS reytinqi necə yarandı?

**Mən reytinqin məqsədini və onu necə yarada biləcəyimizi müəyyən etmək üçün 3 il ərzində dünyanın hər yerindəki universitet kampuslarına baş çəkdim və ali məktəblərin rəhbərləri ilə danışdım. Bizim ali təhsil sektorunun nümayəndələri ilə nəyin mümkün, nəyin qeyri-mümkün olduğunu öyrənmək üçün işgüzar görüşlərimiz oldu. Bu proses zamanı mən dünya səviyyəli universitetlər üçün dörd əsas missiyanı müəyyənləşdirdim: tədqiqatlarda üstünlük, həqiqətən əmək qabiliyyətli məzunların hazırlanması, yüksək keyfiyyətli təhsilə sadiqlik və beynəlmiləlləşməyə diqqət.**

**Çində ailələr üçün uşaqların xaricə göndərilməsi çox vaxt elə bir arzu və böyük investisiyadır ki, onlar ən etibarlı və düzgün məlumatlar axtarırlar. Çində sosial şəbəkələrdə QS reytinq həştəqinin 450 milyon dəfə izlənildiyini eşitdiyimiz bir an var idi ki, bu həqiqətən də heyrətləndirici idi.**

**İlk reytinqi işə salmaq üçün istifadə etdiyimiz ölçmələr və yanaşmalar statistik cəhətdən əhəmiyyətli olaraq qalır, məlumatlar müstəqil olaraq toplanır və yoxlanılır. Bu proses ölkələrin dilindən asılı olmayaraq hər bir universitet üçün tamamlanıb.**



## QS-in təsisçisi və prezidenti Nunzio Quacquarelli:

## "QS əvvəlcə xarici tələbələrə biznes məktəbləri haqqında müqayisəli məlumatlara və verilənlərə giriş imkanı yaratmaq üçün tələbə layihəsi kimi fəaliyyətə başlayıb"

⇦ Əvvəli səh.1

Nunzio Quacquarelli qeyd edir ki, həmin illərdə QS MBA-lara tələbat və aspirantlar arasında lazım olan bacarıqlar haqqında məlumat vermək üçün qlobal işəgötürən sorğuları hazırlayıb. Mütəxəssis kimi artan nüfuzunu və ali təhsildə idarəetmə sahəsində etibarlı məlumat toplamasını nəzərə alan "Financial Times" qəzeti 1994-cü ildə Nunzio Quacquarelliyə biznes məktəblərinin reytinqinin hazırlanmasında əməkdaşlıq təklifi ilə müraciət edib.

"O zaman dəvəti rədd etdim, çünki reytinqin mübahisəli və potensial olaraq QS üçün ən yaxşı seçim olmayacağını hiss edirdim. Amma 1990-cı illər ərzində getdikcə daha çox insan qlobal işəgötürənlər sorğusunu həqiqətən çox bəyəndiklərini və bizim onu reytinqə çevirə biləcəyimizi deyirdilər".

### Universitet reytinqləri üçün təkan artdı

2000-ci ilə qədər Nunzio Quacquarelli və onun böyüməkdə olan QS komandası universitetləri müqayisə etmək üçün reytinq ehtiyacını və sənaye liderləri ilə məsləhətləşmə prosesini dərin qiymətləndirməyə başlayıb: "Mən reytinqin məqsədini və onu necə yarada biləcəyimizi müəyyən etmək üçün 3 il ərzində dünyanın hər yerindəki universitet kampuslarına baş çəkdim və ali məktəblərin rəhbərləri ilə danışdım. Bizim ali təhsil sektorunun nümayəndələri ilə nəyin mümkün, nəyin qeyri-mümkün olduğunu öyrənmək üçün işgüzar görüşlərimiz oldu. Bu proses zamanı mən dünya səviyyəli universitetlər üçün dörd əsas missiyanı müəyyənləşdirdim: tədqiqatlarda üstünlük, həqiqətən əmək qabiliyyətli məzunların hazırlanması, yüksək keyfiyyətli təhsilə sadiqlik və beynəlmiləlləşməyə diqqət. Bu, bizim əsl məqsədimiz olduğunu başa düşdüyümüz an idi, ona görə də ilk reytinqimizi qurmaq üçün bu missiyaların hər biri üçün göstəricilər əldə etmək naminə çox çalışırdıq".

### "Reytinq ədalətli və balanslaşdırılmış qiymətləndirmə hesab olunur"

Nunzio Quacquarelli daha sonra əlavə edib: "Bizim işəgötürənlərin qlobal sorğusu artıq tanınıb və yüksək qiymət alıb. İnsanlar hiss edirdilər və hələ də hesab edirlər ki, məzunların bacarığı və keyfiyyəti baxımından ən nüfuzlu universitetlər haqqında işəgötürənlərin fikirləri həqiqətən vacibdir. Reytinqə yanaşmamızı quraraq universitet rəhbərləri ilə əvvəllər heç kimin universitetin keyfiyyətini qiymətləndirmək üçün istifadə etmədiyi qlobal akademik sorğu keçirmək imkanından danışdıq. Xatırladığım bir şey o dövrdə London İmperial Kollecinin rektoru olan Sir Richard Sayks ilə görüşdən sonra oldu. O dedi ki, ağıllı insanları tanımaq üçün ağıllı insanlar lazımdır. Onun fikrini eşitmək çox məmnunedici idi. O, hesab edirdi ki, qlobal akademik araşdırmalar tamamilə düzgün yanaşmadır. O, akademik cəmiyyətin sıralama anlayışına ümumi reaksiyasının ilk başda mütləq "qarışıq" olduğunu izah etdi. Biz gördük ki, təbiətşünaslar çox vaxt universitetlərin müqayisə üsulu kimi anketlərdən istifadə etməyə şübhə ilə yanaşırlar. Bu, sorğunu keçirən sosiolaqlar üçün fərqli idi. Onlar ictimai rəyin qiymətləndirilməsi üsulu kimi sorğulardan istifadə edirdilər. Bir az da siyasi sorğuya bənzəyirdi. Burada siz bütün ölkənin baxışlarını əks etdirmək üçün əhalinin nümunəsindən istifadə edirsiniz. Biz akademik cəmiyyətlə sıx əməkdaşlıq edərək onları bu yanaşmanın düzgünlüyünə, etibarlılığına və diqqətə layiq olmasına inandırdıq. Reallıq budur ki, hazırda bu yanaşmanı çox az sayda alim tənqid edir. İndi reytinq ədalətli və balanslaşdırılmış qiymətləndirmə hesab olunur. Bu, həqiqətən də ciddi və etibarlı göstəricilər dəstinə çevrilib".

### İlk QS dünya universiteti reytinqi

QS-in ilk dünya universiteti reytinqi 2004-cü ilin oktyabrında işıq üzü gördü. "Reaksiya, hətta başlanğıcda, xüsusilə şagirdlər və valideynlər tərəfindən çox böyük idi. Dünya ictimaiyyəti universitetlərin keyfiyyətinin həm başa düşülməsinin asanlığı, həm də dürüst göstəricilərə yönəlmiş transsərhəd müqayisəsinə açıq şəkildə ehtiyac duyurdu. Hansı reaksiyanı alacağımızı təxmin edə bilməsəm də, yenə də ali təhsildə aparıcı reytinq agentliyi olacağımızı proqnozlaşdırdım. Bu, qarşımıza qoyduğumuz məqsəd idi və düşünürəm ki, buna nail olduq, gözləntiləri aşdıq", -deyə QS-in təsisçisi bildirib.

Onun sözlərinə görə, 20 ildən sonra QS World University Rankings dünya mediasının 65% -ni (mənbə - "Meltwater", 2023) təşkil edir. Və QS-in *topuniversities.com* və *topMBA.com* saytları 60 milyona yaxın ziyarətçiyə malikdir.

QS-in ötən 20 illik tarixində baş vermis uğurlara nəzər salan Nunzio Quacquarelli fikirlərini belə bölüşür: "2021-ci ilin noyabrında Hindistanın baş naziri Narendra Modi ilə görüşmək, bu ölkədə ali təhsil üçün dünya reytinqlərinin vacibliyini müzakirə etmək mənim üçün böyük şərəf idi. Bu, həqiqətən xüsusi bir an idi. "QS Reimagine" təhsil konfransının keçirilməsi üçün Uorton məktəbindən mənim professorum Cerri Uindlə tərəfdaşlıq da böyük qürur mənbəyi idi".

### Çindən 450 milyon baxış

N.Quacquarelli qeyd edir ki, QS reytinqi bütün dünyada tanınsa da, reytinqlər Çin və Hindistanda, həmçinin Afrikada və Yaxın Şərqdə daha çox məşhurdur: "Çox vaxt bu, ona görə baş verir ki, bu ölkələrdə və bölgələrdə övladlarının xaricdə təhsil almasını istəyən ailələrin payı yüksəkdir, məsələn, müqayisə üçün desək, ABŞ-da bu göstərici 1% -dən azdır. Çində ailələr üçün uşaqların xaricə göndərilməsi çox vaxt elə bir arzu və böyük investisiyadır ki, onlar ən etibarlı və düzgün məlumatlar axtarırlar. Çində sosial şəbəkələrdə QS reytinq həştəqinin 450 milyon dəfə izlənildiyini eşitdiyimiz bir an var idi ki, bu həqiqətən də heyrətləndirici idi".

### Gələcəyə baxaraq

N.Quacquarelli reytinqin gələcəyi və hədəfləri barədə nikbinliklə danışır: "QS World University Rankings metodologiyası QS analitikləri, universitet tərəfdaşlarımız və QS Global Rankings Məsləhət Şurasında mütəxəssis-məsləhətçilərimiz tərəfindən daim qiymətləndirilir və diqqətlə öyrənilir. Son 20 ildə sektorda yeniliklərin və dəyişikliklərin miqyasını nəzərə alsaq, metodologiya əsasən sabit qalıb. Reytinqlə bağlı mümkün olduğu qədər uzunmüddətli müqayisəni təmin etmək və obyektivliyə zəmanət vermək üçün universitetlərlə əldə olunmuş razılıq saxlanılıb ki, ali məktəblər tez-tez yeni metodologiya və məlumat tələblərini öyrənməli, həm də təkrar öyrənməli olmayacaqlar. İlk reytinqi işə salmaq üçün istifadə etdiyimiz ölçmələr və yanaşmalar statistik cəhətdən əhəmiyyətli olaraq qalır, məlumatlar müstəqil olaraq toplanır və yoxlanılır. Bu proses ölkələrin dilindən asılı olmayaraq hər bir universitet üçün tamamlanıb".

"QS World University Rankings 2024" üçün bütün dünya üzrə yüzlərlə təhsil müəssisəsi və qurumun Məsləhət Şurası ilə ətraflı məsləhətləşmələrdən sonra QS-in metodologiyasında dəyişikliklər edildiyini diqqətə çatdıran N.Quacquarelli əlavə edib ki, metodologiya indi 3 yeni göstəricini əhatə edəcək: Beynəlxalq Tədqiqat Şəbəkəsi, Məşğulluq Nəticələri və Sabitlik.

"Metodologiyamızda həmişə ardıcıl qalmağa çalışsaq da, universitetlərin dəyişən missiyalarını əks etdirmək üçün də inkişaf etməliyik. Biz etiraf edirik ki, xidmət etdiyimiz qlobal tələbə icması iqlim böhranının əhəmiyyətini başa düşür və universitetlərin davamlı inkişaf proqramını dəstəkləməkdə həqiqi məsuliyyətini görür. Biz 2022-ci ildə tariximizdə ilk "QS World University Rankings: Sustainability" reytinqimizi işə saldıq, 2023-cü ildə isə davamlılıq məsələlərini öz aparıcı reytinqlərinə daxil edən əsas reytinqlər arasında birinci olacağıq. Mən bu dəyişikliklə xüsusilə fəxr edirəm, çünki ümid edirik ki, bu, universitetlərin tədqiqatlarının nəticələrini yaxşılaşdırmaq və onların ekoloji və sosial dəyişikliklərə sadiqliyini, eləcə də müəssisələrin özlərini necə daha davamlı edə biləcəyinə daha çox diqqət yetirmələrinə kömək edəcək", - deyə N.Quacquarelli bildirib.

**Oruc MUSTAFAYEV**